# Qanunun Təkrarı

*Kitabı*

***Giriş***

*«Qanunun Təkrarı»* Kitabı Musa peyğəmbər Moav səhrasında olarkən İsrail xalqına söylədiyi nitqdir. Kitabda yazılan mühüm hadisələr bunlardır: Musa ötən qırx il ərzində baş vermiş hadisələri yada salır. O, xalqı Allaha itaətkar və sadiq olmağa çağırır, Allahın onları səhradan necə keçirtdiyini yadda saxlasınlar deyə xalqa müraciət edir. Musa Müqəddəs Qanunun əsası olan on əmri (5:6-21) həmçinin və’d olunmuş torpaqda İsrail xalqının həyatını istiqamətləndirən qanunları nəzərdən keçirir. O, Allahın kim olduğunu dönə-dönə İsrail xalqının yadına salır.

Musa İsrail xalqına Allahın onlarla bağladığı əhdinin mə’nasını xatırladır və əhdin şərtlərinə əsasən xalqı Allaha həsr olunmağa çağırır. Allah Musadan sonra Yeşuanı İsrail xalqına rəhbər olmağa çağırır. Musa Allahı mədh edən ilahi qoşub oxuyur və İsrail qəbilələrinə xeyir-dua verdikdən sonra Moavda – İordan çayının şərqində vəfat edir.

Kitabın əsas mövzusu budur: Allah seçdiyi xalqı sevdiyinə görə xilas edir və xeyir-dua verir. Buna görə də İsrail xalqı bunu yadda saxlamalı və xeyir-dualı həyat sürmək üçün Allaha itaət etməlidir. İsa Məsihin ən böyük əmr adlandırdığı əmrin sözləri bu kitabdandır:

«Allahın Rəbbi bütün qəlbinlə,
bütün varlığınla, var gücünlə
sev» (6:5).

***Kitabın məzmunu:***


Musanın xalqa nidası 1:1-4:49

Musa qanunu və əmrləri təkrarlayır 5:1-26:19

Bərəkət və lə’nət 27:1-28:68

Əhdin yeniləşməsi 29:1-30:20

Musanın son sözləri 31:1-33:29

Musanın ölümü 34:1-12


## *Qanunun izahı*

1 1 İordan çayının şərq tərəfində səhrada
Paranla Tofel, Lavan, Xaserot və Di-
Zahav arasında, Sufun qarşısında olan Arava
vadisində Musanın bütün İsraillilərə söylədiyi
sözlər bunlar idi: 2 Seir dağının yolu ilə
getmək üçün Xorevdən Qadeş-Barneaya
qədər on bir günlük yol var idi. 3 Misirdən
çıxdıqlarının qırxıncı ilində, on birinci ayın
birində Musa Rəbbin İsrail övladları üçün ona
əmr etdiyi hər şeyi söylədi. 4 Musa Xeşbonda
yaşayan Emorluların padşahı Sixonu və
Aştarotda, Edreidə yaşayan Başan padşahı
Oqu məğlub edəndən sonra bu nitqi söylədi.
5 İordan çayının şərq tərəfində yerləşən Moav
torpağında Musa bu qanunu izah etməyə
başladı.

### *Xorevdən çıxma*

6 «Xorevdə olanda Allahımız Rəbb bizə
belə dedi: “Bəsdir bu dağda yaşadığınız!
7 Qalxın buradan köçüb Emorluların dağlıq
bölgəsinə, Arava vadisində, dağlarda,
yamaclı-düzənlikli bölgədə, Negevdə və dəniz
kənarında yaşayan bütün qonşu xalqların
arasına, böyük Fərat çayına qədər uzanan
Kən’an torpağına və Livana gedin. 8 Sizin
qarşınıza çıxardığım torpaq budur. Rəbbin
atalarınıza – İbrahimə, İshaqa, Yaquba özləri
üçün və özlərindən sonra gələn övladları üçün
və’d etdiyi bu torpağa girərək oranı özünüzə
mülk edin”.
9 O vaxt mən sizə belə dedim: “Təkbaşına
sizin yükünüzü daşıya bilmərəm. 10 Allahınız
Rəbb sizi çoxaltdı və budur, bu gün siz göyün
ulduzları qədər çoxsunuz. 11 Qoy atalarınızın
Allahı Rəbbin söylədiyi kimi olsun, sizə
xeyir-dua verərək olduğunuzdan min qat artıq
etsin. 12 Axı mən təkbaşına zəhmətinizə,
əziyyətinizə və münaqişələrinizə necə tab
gətirim? 13 Özünüz üçün hər qəbilədən müdrik,
uzaqgörən və təcrübəli adamlar seçin. Mən
onları sizə başçı tə’yin edəcəyəm”. 14 Siz də
“sən deyən yaxşıdır” dediniz. 15 Mən
qəbilələrinizin müdrik və təcrübəli
ağsaqqallarından götürüb sizə minbaşı,
yüzbaşı, əllibaşı, onbaşı və qəbilə mə’murları
tə’yin etdim. 16 O vaxt hakimlərinizə belə əmr
etdim: “Aralarında münaqişəsi olan
soydaşlarınızı dinləyin. Münaqişə istər İsrailli
soydaşlarınız arasında, istərsə bir İsrailli ilə
yadelli arasında olsun, hökm çıxararkən
ədalətli olun. 17 Heç kimə tərəfkeşlik etmədən
kiçiyi də böyük kimi dinləyərək hökm çıxarın.
İnsan şəxsiyyətindən qorxmayın, hökm
Allahındır. Sizin üçün çətin olan münaqişəli
məsələləri isə mənim yanıma gətirin. Mən

---

***1:4*** *– Say. 21:21-35*

onlara qulaq asaram”. 18 O vaxt edəcəyiniz
şeylərin hamısını sizə əmr etdim.

### *Və’d edilən torpaqların gözdən keçirilməsi*

*(Say. 13:1-33)*

19 Sonra biz Xorevdən köçdük. Allahımız
Rəbbin bizə əmr etdiyi kimi gördüyünüz
böyük və qorxunc səhranı keçərək
Emorluların dağlıq bölgəsinə tərəf köçüb
Qadeş-Barneaya çatdıq. 20 Mən orada sizə
dedim: “Allahınız Rəbbin bizə verdiyi
Emorluların dağlıq bölgəsinə çatdınız.
21 Budur, Allahınız Rəbb torpağı sizə verdi.
Atalarınızın Allahı Rəbbin sizə söylədiyi kimi
qalxın, oranı mülk edin. Heç nədən qorxub
çəkinməyin”. 22 O zaman hamınız yanıma
gəlib dediniz: “Adamlar göndərək, qoy
əvvəlcə torpağı onlar nəzərdən keçirsinlər.
Qoy gedəcəyimiz yol və çatacağımız şəhərlər
barədə bizə mə’lumat gətirsinlər”. 23 Bu fikir
xoşuma gəldi. Hər qəbilədən bir nəfər
olmaqla aranızdan on iki nəfər götürdüm.
24 Onlar dağlıq bölgəsinə qalxdılar. Eşkol
vadisinə qədər gəlib oranı gözdən keçirdilər.
25 Bu torpağın məhsullarından əllərinə
götürüb yanımıza qayıtdılar və belə mə’lumat
verdilər: “Allahımız Rəbbin bizə vermək
istədiyi münbit torpaqdır”.

### *Rəbbə qarşı asilik*

*(Say. 14:1-45)*

26 Siz isə Allahımız Rəbbin əmrinə asi
çıxaraq oraya qalxmaq istəmədiniz. 27 Öz
çadırlarınızda deyindiniz: “Rəbb bizə nifrət
edir. Bizi Misir ölkəsindən ona görə çıxartdı
ki, Emorlulara təslim etsin və həlak etsin.
28 Axı biz hara gedirik? Soydaşlarımız ‹o xalq
sayca bizdən çox və ucaboydur, böyük
şəhərləri göyə çatan hasarları var, Anaqlıları
da orada gördük› deyə-deyə bizdə ürək
qoymadılar”.

29 Onda mən sizə dedim: “Onlardan qorxub
çəkinməyin. 30 Allahınız Rəbb qarşınızca
gedir. Sizin üçün Özü döyüşəcək. Misirdə və
səhrada gözünüz qarşısında sizin üçün etdiyi
hər şeyi yenə də edəcəkdir. 31 İnsan öz balasını
apardığı kimi səhradan bu yerə çatana qədər
Allahınız Rəbbin də sizi elə apardığını
gördünüz”.

32 Buna baxmayaraq, sizə düşərgə salmağa
yer axtarmaq və gedəcəyiniz yolu göstərmək
üçün gecə alovla, gündüz buludla 33 qarşınızca
yol gedən Rəbbə e’tibar etmədiniz. 34 Rəbb bu
danışığınızı eşidib qəzəbləndi və and içərək
dedi: 35 “Atalarınıza vermək üçün and etdiyim
bu gözəl torpağı Yefunne oğlu Kalevdən
başqa bu iyrənc nəslin adamlarından heç biri
görməyəcək. 36 Oranı Kalev görəcək.
Tamamilə Rəbbin ardınca getdiyi üçün ayaq
basdığı torpağı ona və övladlarına
verəcəyəm”. 37 Sizin ucbatınızdan Rəbb mənə
də qəzəbləndi və belə dedi: “Sən də oraya
girməyəcəksən. 38 Oraya sənin köməkçin Nun
oğlu Yeşua girəcək. Onu cəsarətləndir, çünki
torpağı İsraillilərə irs olaraq o böləcək.
39 ‹Əsir olacaqlar› dediyiniz balalarınız,
yaxşını pisdən hələ ayıra bilməyən uşaqlarınız
oraya girəcəklər. Ölkəni onlara verəcəyəm,
oranı onlar mülk olaraq alacaqlar. 40 Siz isə
dönüb Qırmızı dəniz yolundan səhraya
köçün”.

41 Sonra siz mənə belə cavab verdiniz:
“Rəbbə qarşı günah etdik. Allahımız Rəbbin
bizə etdiyi əmrə əsasən çıxıb döyüşəcəyik”.
Hamınız dağlığa çıxmağın asan olduğunu
düşünərək döyüş silahlarına sarıldınız. 42 Rəbb
mənə dedi: “Onlara de ki, aralarında Mən
yoxam. Döyüşə çıxmasınlar, yoxsa
düşmənlərinə məğlub olarlar”. 43 Siz isə
mənim sözümə qulaq asmadınız. Rəbbin
əmrinə asi olaraq döyüşə çıxmağa cür’ət
etdiniz. 44 Bu dağlıq bölgəsində yaşayan
Emorlular müqavimət göstərərək sizi arı kimi
qovdular və sizi Seirdən Xormaya qədər
qırdılar. 45 Belə olanda qayıdıb Rəbbin
hüzurunda ağladınız, lakin Rəbb səsinizi
eşitmədi və sizə qulaq asmadı. 46 Uzun
müddət yerinizdəcə – Qadeşdə qaldınız.

### *İsrail xalqının səhrada dolaşdığı illər*

2 1 Rəbbin mənə əmr etdiyi kimi qayıdıb
Qırmızı dəniz yolu ilə səhraya köç etdik.
Xeyli vaxt Seir dağlıq bölgəsini gəzib
dolaşandan sonra 2 Rəbb mənə belə dedi: 3 “Bu
dağlıq bölgəsini gəzib dolaşmağınız kifayətdir,
indi şimala dönün. 4 Xalqa belə əmr et: ‹Seirdə
yaşayan qohumlarınız Esav övladlarının

---

***1:26*** *– Qanun. 9:23; İbr. 3:16*
***1:30-31*** *– Həv. 13:18*
***1:32*** *– İbr. 3:19*
***1:34-36*** *– İbr. 3:18*
***1:42,44*** *– Say. 14:42,45*
***2:1*** *– Say. 21:4*
***2:4*** *– Yar. 36:8*

torpağından keçəcəksiniz. Onlar sizdən
qorxacaqlar, buna görə çox diqqətli olun.
5 Onlarla münaqişə yaratmayın, çünki
torpaqlarından bir qarış da sizə
verməyəcəyəm. Ona görə ki Mən mülk olaraq
Seir dağlıq bölgəsini Esav nəslinə vermişəm.
6 Onlardan yeməyi də, suyu da pulla alın,
yeyib-içməyiniz qoy belə olsun›”. 7 Çünki
Allahınız Rəbb əlinizdə olan hər işə xeyir-dua
verib. Belə böyük səhrada gəzib-dolaşdığınız
zaman O sizi qorumuşdu. Bu qırx il ərzində
sizinlə olan Allahınız Rəbbin sayəsində heç
nəyə ehtiyacınız olmayıb.

8 Biz Seir dağında yaşayan qohumlarımız
Esav övladlarının torpağından, Elat və Esyon-
Geverdən Arava yolundan burularaq Moav
səhrası yolundan keçdik. 9 Rəbb mənə dedi:
“Moavlıları incitmə və onlarla döyüşə girmə.
Mən onların torpağından mülk olaraq sizə heç
nə verməyəcəyəm, çünki Ar ölkəsini mülk
olaraq Lut övladlarına vermişəm”. 10 Orada
əvvəl Emlilər, Anaqlılar kimi ucaboy, güclü
və çoxsaylı bir xalq yaşayırdı. 11 Onlar da
Anaqlılar kimi Rafalılar sayılırdı, lakin
Moavlılar onları Emlilər adlandırırdılar.
12 Seirdə isə əvvəllər Xorlular yaşayırdı. Esav
övladları onları qovdu, İsraillilərin Rəbbin
mülk olaraq verdiyi torpağın əhalisinə etdiyi
kimi qarşılarına çıxan Xorluları qırıb
torpaqlarında məskən saldılar.

13 Rəbb sözünə davam etdi: “İndi qalxıb
Zered vadisini keçin”. Biz Zered vadisini
keçdik. 14 Qadeş-Barneadan köçdüyümüz
vaxtdan Zered vadisini keçənədək otuz səkkiz
il oldu. Rəbbin and içdiyi kimi düşərgədə olan
o dövrdəki nəslin döyüşçülərindən heç biri
sağ qalmamışdı. 15 Onları ordugahdan yox
edib qurtaranadək Rəbbin əli onlara qarşı oldu.

16 Xalqın bütün döyüş adamları ölüb-
qurtarandan sonra 17 Rəbb mənə belə dedi:
18 “Siz bu gün Moav torpağında yerləşən
Ardan keçəcəksiniz. 19 Ammon övladlarına
yaxınlaşanda onları incitməyin və münaqişə
yaratmayın, çünki sizə Ammon övladlarının
torpağından mülk olaraq heç nə
verməyəcəyəm, ona görə ki oranı da Lut
övladlarına vermişəm”. 20 Ora da Rafalıların
torpağı sayılırdı, əvvəllər orada Rafalılar
yaşayırdı. Ammonlular onları Zamzumlular
adlandırırdılar. 21 Onlar da Anaqlılar kimi
ucaboy, güclü və çoxsaylı bir xalq idi. Rəbb
onları Ammonluların qarşısından yox etmişdi.
Ammonlular onları qovub yerlərində məskən
salmışdılar. 22 Rəbb Seirdə yaşayan Esav
övladları üçün də həmin işi görərək Xorluları
onların qarşısından yox etmişdi. Esav
övladları Xorluları qıraraq yerlərində məskən
saldılar və bu günə qədər orada
yaşamaqdadırlar. 23 Kaftordan çıxan
Kaftorlular isə Qəzzəyə qədər kəndlərdə
yaşayan Avvalıları qırdılar və onların yerində
məskən saldılar.

24 Rəbb dedi: “Qalxıb köç edin, Arnon
vadisindən keçin. Bax Xeşbon padşahı
Emorlu Sixonu və onun ölkəsini sizə təslim
etdim. Özünüz üçün mülk olaraq oranı almağa
başlayın. Onlarla döyüşə girin. 25 Bu gündən
Mən səma altında olan bütün xalqları sizə
görə qorxu və vahiməyə salmağa başlayıram.
Sizin sorağınızı eşidənlər qarşınızda titrəyib
büzüşəcəklər”.

### *İsraillilərin padşah Sixonu məğlub etməsi*

*(Say. 21:21-30)*

26 Qedemot səhrasından Xeşbon padşahı
Sixonun yanına sülh danışığı üçün qasidlər
göndərdim və dedim: 27 “Rica edirik, sənin
torpağından keçmək üçün bizə izin verəsən.
Yalnız yol keçəcəyik, oradan nə sağa, nə də
sola dönəcəyik. 28 Pulla bizə yemək satsanız,
yeyəcəyik, su satsanız, içəcəyik. Bizə ölkəni
piyada keçmək kifayətdir. 29 Seirdə yaşayan
Esav övladları və Arda yaşayan Moavlılar
etdiyi kimi sən də izin ver ki, İordan çayından
Allahımız Rəbbin bizə verdiyi torpağa keçək”.
30 Lakin Xeşbon padşahı Sixon bizi
torpağından keçməyə qoymadı. Çünki
bugünkü kimi Allahınız Rəbb sizə təslim
etmək üçün onu inadkar və daşürəkli etdi.

31 Rəbb mənə dedi: “Bax Sixonu və ölkəsini
sənə təslim etməyə başlayıram. Oranı fəth
edib irs olaraq almağa başla”. 32 Sixon özü və
bütün ordusu döyüşmək üçün Yahsada bizim
qarşımıza çıxdı. 33 Allahımız Rəbb onu bizə
təslim etdi. Biz də Sixonu, övladlarını və
bütün ordusunu qırdıq. 34 O vaxt onun bütün
şəhərlərini aldıq. Hər bir şəhəri kişi, qadın və
uşaqlarla birlikdə tamamilə məhv etdik:
kimsəni sağ qoymadıq. 35 Heyvanlarını
götürüb aldığımız şəhərləri talan etdik.
36 Arnon vadisinin kənarında Aroerdən və

---

***2:9*** *– Yar. 19:37*
***2:14*** *– Say. 14:28-35*
***2:19*** *– Yar. 19:38*

vadidə olan şəhərdən Gileadadək qarşımıza
bizdən güclü bir şəhər çıxmadı. Allahımız
Rəbb onların hamısını bizə təslim etdi.
37 Lakin Ammonluların ölkəsinə, bütün
Yabboq çayı kənarına və dağlıq bölgəsindəki
şəhərlərə – Allahımız Rəbbin qadağan etdiyi
heç yerə yaxınlaşmadıq.

### *Başan padşahı Oq üzərində qələbə*

*(Say. 21:31-35)*

3 1 Sonra istiqaməti dəyişib Başana
yollandıq. Başan padşahı Oq bütün
ordusu ilə bərabər Edreidə bizimlə döyüşə
çıxdı. 2 Rəbb mənə dedi: "Ondan qorxma,
çünki Mən onu, bütün xalqını və torpağını
sənə təslim edirəm. Xeşbonda yaşayan
Emorluların padşahı Sixonun başına
gətirdiyini onun da başına gətir". 3 Allahımız
Rəbb Başan padşahı Oqu və bütün ordusunu
bizə təslim etdi. Biz də kimsəni sağ
buraxmadan hamısını qırıb, 4 bütün şəhərlərini
aldıq, almadığımız bir şəhər belə, qalmadı.
Aldığımız şəhərlərin sayı altmış idi. Bu yerlər
Başanda Oqun ölkəsi olan bütün Arqov
diyarını təşkil edirdi. 5 Şəhərlərin hamısının
darvazaları cəftəli idi və hündür divarlarla
əhatə olunmuşdu. Bundan əlavə çoxlu
divarsız kəndlər də var idi. 6 Xeşbon padşahı
Sixonun başına gətirdiyimiz kimi onları da
qırıb kişi, qadın və uşaqları ilə bərabər
şəhərlərin hamısını tamamilə məhv etdik.
7 Bütün heyvanları götürüb şəhərləri talan
etdik.

8 Beləcə o vaxtlar Arnon vadisindən
Xermon dağına qədər olan İordan çayının
şərqindəki Emorluların iki padşahının əlindən
ölkəni aldıq. 9 Sidonlular Xermonu Siryon
adlandırırdılar. Emorlular isə oraya Senir
deyirdilər. 10 Yaylada olan bütün şəhərləri,
bütün Gileadı, Oqun Başan ölkəsindəki
şəhərləri olan Selka və Edreiyə qədər bütün
Başan torpağını aldıq.

11 Rafalılardan ancaq Başan padşahı Oq sağ
qalmışdı. O, dəmir çarpayısında yatardı. Hələ
Ammon övladlarının Rabba şəhərində olan bu
çarpayının adi ölçüyə görə uzunluğu doqquz,
eni isə dörd qulac idi.

---

*3:1-2* – *Say. 21:33-34*

### *İordan çayının şərq torpaqlarının paylaşdırılması*

*(Say. 32:1-42)*

12 O vaxt irs olaraq bu torpaqları aldıq:
Arnon vadisinin yanında olan Aroerdən
başlanan ölkəni, Gilead dağlıq bölgəsinin
yarısını şəhərləri ilə bərabər Ruvenlilərə və
Qadlılara verdim. 13 Gileadın qalan hissəsini,
Oqun ölkəsi olan bütün Başanı Menaşşe
qəbiləsinin yarısına verdim. Başanda olan
bütün Arqov diyarına Rafalılar ölkəsi
deyilirdi. 14 Menaşşe oğlu Yair Geşurlular və
Maakatlıların sərhədinə qədər Arqov diyarını
aldı. Oraya – Başana öz adına uyğun Xavvot-
Yair adını verdi, bu günə qədər də belə
adlanır. 15 Gileadı Makirə verdim.
16 Ruvenlilərlə Qadlılara Gileaddan Arnon
vadisinə qədər uzanan torpaqları verdim.
Vadinin ortası onların sərhədi, Ammonlularla
sərhədləri isə Yabboq çayı idi. 17 Aravada
sərhəd İordan çayı idi: Kinneretdən Arava
dənizinə, yə'ni Duz dənizinə, şərq tərəfdəki
Pisqa yamaclarının altına qədər uzanırdı.

18 O vaxtlar sizə əmr edib dedim: "Bu
torpağı mülk olaraq almaq üçün Allahınız
Rəbb sizə verdi. Siz – bütün cəngavərlər
silahlanaraq soydaşlarınız İsrail övladlarının
qarşısında gedin. 19 Hər biriniz sizə verdiyim
şəhərlərə sonralar qayıda bilərsiniz". 20 Amma
Rəbb sizin kimi soydaşlarınıza da rahatlıq
verənə qədər, Rəbbin İordan çayının şərqində
onlara verdiyi torpağı mülk olaraq alana qədər
arvadlarınız, uşaqlarınız və heyvanlarınız –
bilirəm ki, çox heyvanlarınız var – sizə
verdiyim şəhərlərdə qalsınlar.

21 O vaxtlar Yeşuaya əmr edib dedim:
"Allahınız Rəbbin bu iki padşahın başına
gətirdiyi hər şeyi gözlərinizlə gördünüz. Rəbb
keçəcəyiniz bütün ölkələrdə belə edəcək.
22 Onlardan qorxmayın, çünki Allahınız Rəbb
Özü sizin üçün döyüşəcək!"

### *Rəbb Musaya İordan çayını keçməyə izin vermir*

23 O zaman Rəbbə yalvararaq dedim: 24 "Ya
Xudavənd Rəbb, Sən Öz böyüklüyünü və
qüdrətli əlini bu quluna göstərməyə başladın.
Göydə və yerdə hansı allah var ki, Sənin
etdiyin böyük işləri görə bilsin, Sənin kimi
hər şeyə qadir olsun! 25 Rica edirəm, qoy

---

*3:17-20* – *Yeşua 1:12-15*
*3:23-27* – *Say. 27:12-14; Qanun. 32:48-52*

İordan çayını keçib onun qərb tərəfində olan
gözəl torpağı – o gözəl dağlıq bölgəsini və
Livanı görüm”. 26 Lakin sizin ucbatınızdan
Rəbb mənə qəzəblənmişdi, ona görə də məni
eşitmədi və dedi: “Bəsdir, bu barədə bir daha
Mənə müraciət etmə! 27 Pisqa təpəsinə çıxıb
qərbə, şimala, cənuba və şərqə göz gəzdir.
Qoy gözlərin oraları görsün, çünki sən İordan
çayını keçməyəcəksən. 28 Yeşuaya əmr ver.
Ona cəsarət verərək qüvvətləndir, çünki bu
xalqın önündən keçərək görəcəyin torpağı irs
olaraq onlar üçün Yeşua böləcək”. 29 Buna
görə də Bet-Peor qarşısında olan dərədə
dayandıq.

### *Rəbbin qanunlarına itaət*

4 1 İndi, ey İsraillilər, sizə öyrədəcəyim
qaydalara və hökmlərə qulaq asın. Onlara
əməl etsəniz, yaşayacaqsınız, atalarınızın
Allahı Rəbbin sizə verəcəyi torpağa daxil
olub oranı irs olaraq alacaqsınız. 2 Sizə
verəcəyim əmrlərə heç nə artırıb-əskiltməyin.
Yalnız Allahınız Rəbbin əmrlərinə – sizə
verəcəyim əmrlərə riayət edin. 3 Rəbbin Baal-
Peorda nələr etdiyini öz gözünüzlə gördünüz.
Allahınız Rəbb Peordakı Baala səcdə
edənlərin hamısını aranızdan yox etdi. 4 Siz
isə Allahınız Rəbbə sadiq olduğunuz üçün bu
gün sağsınız.

5 Baxın Allahım Rəbbin mənə əmr etdiyi
qayda və hökmləri sizə öyrətmişəm ki, mülk
olaraq almaq üçün daxil olacağınız torpaqda
bunlara əməl edəsiniz. 6 Onlara diqqətlə riayət
edin. Bu, digər xalqlara nə qədər müdrik və
aqil olduğunuzu göstərər. Onlar bu qaydaları
eşidəndə deyəcəklər ki, bu böyük millət,
həqiqətən, müdrik və aqil bir xalqdır!
7 Allahımız Rəbb hər dəfə dua edərkən bizə
yaxın olar. Axı hansı millət belə üstündür ki,
Allahı ona bu cür yaxın olsun? 8 Hansı millət
belə üstündür ki, bu gün qarşınıza gətirdiyim
bu Qanun kimi ədalətli qaydalara və hökmlərə
malik olsun?

9 Ancaq diqqətli olun. Gözünüzlə
gördüklərinizi unutmamaq və ömür boyu
yaddan çıxarmamaq üçün böyük sə’y göstərin.
Bunları övladlarınıza, nəvələrinizə öyrədin.
10 Xorevdə Allahınız Rəbbin önündə
dayandığınız günü xatırlayın. O zaman Rəbb
mənə dedi: “Xalqı Mənim üçün bir yerə topla.
Mən Öz sözlərimi onlara eşitdirəcəyəm. Belə
ki yer üzərində yaşadıqları müddətdə yalnız
Məndən qorxmağı öyrənsinlər və övladlarına
öyrətsinlər”. 11 Siz də yaxınlaşıb dağın
ətəyində dayandınız. Dağ yanır, alovu göyün
dərinliklərinə çatırdı. Hər yan isə qara bulud
və qatı zülmət içində idi. 12 Rəbb sizinlə bu
alovun içərisindən danışdı. Siz Onun danışıq
səsini eşitdiniz, lakin bir surət görmədiniz.
Yalnız bir səs var idi. 13 O sizə əhdini, yə’ni
əməl etmənizi buyurduğu on əmri e’lan etdi.
Bunları iki daş lövhə üzərinə yazdı. 14 Elə o
vaxt Rəbb mənə mülk olaraq almaq üçün
gedəcəyiniz torpaqda əməl edəcəyiniz qayda
və hökmləri öyrətmək tapşırığını verdi.

### *Bütpərəstlikdən çəkinmə yolları*

15 Rəbb Xorevdə alovun içərisindən sizinlə
danışan gün heç bir surət görmədiniz. Buna
görə çox diqqətli olun ki, 16 yoldan azıb
özünüz üçün kişi və yaxud qadınabənzər,
17 yerdə olan hər hansı bir heyvanabənzər,
göydə uçan hər hansı bir qanadlı quşabənzər,
18 torpaqda sürünən hər hansı bir
məxluqabənzər, yerin dərinliklərində yığılan
suda yaşayan hər hansı bir balığabənzər, hər
hansı bir cisməbənzər oyma büt
yaratmayasınız. 19 Gözlərinizi göyə qaldıraraq
günəşi, ayı, ulduzları və bütün səma
cisimlərini görəndə azmayın. Allahınız
Rəbbin bütün səma altındakı xalqlara verdiyi
bu şeylərlə aldanıb onlara səcdə edərək sitayiş
etməyin. 20 Sizə gəldikdə isə, Rəbb sizi
götürüb dəmirəridən soba içindən – Misirdən
çıxarıb ki, bugünkü kimi Ona məxsus xalq
olasınız.

21 Sizin ucbatınızdan Allahınız Rəbb mənə
qəzəbləndi və and etdi ki, mən İordan çayını
keçib irs olaraq sizə verdiyi o gözəl torpağa
daxil olmayım. 22 İordan çayını keçə bilməyib
bu torpaqda öləcəyəm. Siz isə o gözəl torpağa
keçəcək və oranı mülk olaraq alacaqsınız.
23 Ehtiyatlı olun ki, Allahınız Rəbbin sizinlə
etdiyi əhdi unutmayasınız. Allahınız Rəbbin
qadağan etdiyi hər hansı bir şeyə bənzər oyma

---

***4:2*** *– Vəhy 22:18-19*
***4:3*** *– Say. 25:1-9*

***4:11-12*** *– Çıx. 19:16-18; İbr. 12:18-19*
***4:13*** *– Çıx. 31:18*
***4:14*** *– Çıx. 21:1*
***4:16-18*** *– Çıx. 20:4; Lev. 26:1; Qanun. 5:8; 27:15*
***4:16-18*** *– Rom. 1:23*
***4:20*** *– Çıx. 19:5; Qanun. 7:6; 14:2; 26:18; Tit. 2:14; 1Pet. 2:9*
***4:21*** *– Say. 20:12*

büt yaratmayın. 24 Çünki Allahınız Rəbb hər
şeyi yandırıb-yaxan alovdur. O, qısqanc
Allahdır.
25 Siz ölkədə yaşayıb övladlarınız,
nəvələriniz doğulandan sonra oyma büt
yaradaraq yoldan azsanız, Allahınız Rəbbin
gözündə pis olanı edib Onu acıqlandırsanız,
26 sizin qarşınızda bu gün göyləri və yeri şahid
tuturam ki, mülk olaraq almaq üçün İordan
çayını keçib getdiyiniz torpaq üzərindən
tezliklə yox olacaqsınız. O torpaqda uzun
ömür sürməyəcəksiniz, tamamilə məhv
olacaqsınız. 27 Rəbb sizi xalqlar arasına pərən-
pərən salacaq və apardığı yerdə millətlər
arasında sizdən az miqdarda adam sağ
qalacaq. 28 Orada isə siz insanın əl işi olan –
görməyən, eşitməyən, yeməyən, iy bilməyən
ağacdan və ya daşdan olan allahlara qulluq
edəcəksiniz. 29 Amma o yerdə Allahınız Rəbbi
axtaracaqsınız. Əgər Onu bütün qəlbinizlə,
bütün varlığınızla axtarsanız, tapacaqsınız.
30 Əzabda olarkən, bütün bu hadisələr başınıza
gələrkən, nəhayət, Rəbbə dönüb Ona qulaq
asacaqsınız. 31 Axı Allahınız Rəbb rəhmli
Allahdır. O sizi atmaz, məhv etməz.
Atalarınıza andla təsdiq etdiyi əhdi unutmaz.
32 İndi Allahınızın yer üzərində insan
yaratdığı gündən bəri sizdən əvvəlki dövrün
günləri barədə göylərin bir başından o biri
başına qədər hamıdan soruşun. Belə böyük
hadisə olubmu? Belə bir şey eşidilibmi?
33 Hansı bir xalq sizin kimi alov içərisindən
danışan Allahın səsini eşitdi və sağ qaldı?
34 Yaxud hansı allah Allahınız Rəbb kimi
Misirdə gözləriniz önündə sizin xeyrinizə
işləyərək imtahanlarla, əlamətlərlə,
mö'cüzələrlə, döyüşlərlə, qüvvətli əli ilə,
uzanan qolu ilə, böyük zəhmi ilə başqa
millətin üstünə gedib onlardan öz millətini
aldı? 35 Bütün bunlar sizə ona görə göstərildi
ki, bunu biləsiniz: yalnız Rəbb Allahdır,
başqası yoxdur. 36 Sizi tərbiyə etmək üçün
göylərdən səsini sizə eşitdirdi. Öz böyük
alovunu yer üzərində sizə göstərdi və alovun
içərisindən Onun sözlərini eşitdiniz.
37 Atalarınızı sevdiyindən onlardan sonra
övladlarını seçdi. Sizi böyük qüdrəti ilə
Misirdən Şəxsən Özü çıxartdı ki, 38 sizdən
böyük və qüvvətli millətləri qarşınızdan
qovsun və bugünkü kimi onların torpağını irs
olaraq vermək üçün sizi oraya gətirsin. 39 Bu
gündən bilin və yadınızda qalsın ki, yuxarıda
– göydə və aşağıda – yerdə Rəbb Allahdır.
Ondan başqası yoxdur. 40 Bu gün sizə
verdiyim Rəbbin qanun və əmrlərinə riayət
edin ki, sizə, sizdən sonra gələn övladlarınıza
xeyir gətirsin, Allahınız Rəbbin əbədi olaraq
verdiyi bu torpaqda uzun ömür sürəsiniz».

### *Üç sığınacaq şəhər*

41 O zaman Musa İordan çayının şərq
tərəfində üç şəhər seçdi. 42 Bu şəhərləri
qonşusu ilə əvvəlcədən ədavəti olmayan və
bilmədən onu öldürən adamın oraya qaçması
üçün ayırdı. Belə adam bu şəhərlərdən birinə
qaçıb sağ qala bilər. 43 Bunlar Ruven qəbiləsi
üçün yaylada yerləşən səhradakı Beser,
Qadlılar üçün Gileaddakı Ramot, Menaşşe
qəbiləsi üçün isə Başandakı Qolan şəhərləri
idi.

### *Qanuna giriş*

44 Musa qanunu İsrail övladlarının qarşısına
qoydu. 45 Bu, Misirdən çıxan zaman Musanın
İsrail övladlarına verdiyi fərmanlar, qayda və
hökmlərdir. 46 Bunları Musa İordan çayının
şərqində Misirdən çıxan zaman Musa ilə İsrail
övladlarının həlak etdikləri Xeşbonda yaşayan
Emorluların padşahı Sixonun ölkəsində olan
Bet-Peor qarşısındakı dərədə söylədi. 47 İrs
olaraq onun ölkəsini və Başan padşahı Oqun
ölkəsini – İordan çayının şərq tərəfindən əldə
edilən Emorluların iki padşahının ölkəsini,
48 Arnon vadisi kənarında olan Aroerdən
Siyon dağına qədər, yə'ni Xermona qədər,
49 İordan çayının şərqində Arava dənizinə
qədər olan Pisqa yamaclarının altındakı bütün
Aravanı aldılar.

5 1 Musa bütün İsraillilləri çağırıb dedi:
«Dinlə, ey İsrail! Bu gün sənə deyəcəyim
qayda və hökmləri öyrənib dəqiq əməl et!
2 Xorevdə Allahımız Rəbb bizimlə əhd kəsdi.
3 Bu əhdi Rəbb atalarımızla deyil, bu gün
məhz burada bizim sağ qalanlarımızla kəsdi.
4 Rəbb dağdakı alovun içərisindən sizinlə
üzbəüz danışdı. 5 O zaman Rəbbin sözünü
izah etmək üçün sizinlə Rəbbin arasında mən
dayanmışdım. Alovdan qorxduğunuza görə
dağa çıxmadınız.

---

***4:24*** *– Qanun. 9:3; İbr. 12:29*
***4:27-28*** *– Qanun. 28:36*
***4:29*** *– Yer. 29:13*
***4:35*** *– Mrk. 12:32*
***4:41-43*** *– Yeşua 20:8-9*

### *On əmr*

*(Çıx. 20:1-17)*

6 Rəbb belə dedi: "Səni Misir torpağından,
köləlik diyarından çıxaran Allahın Rəbb
Mənəm.

7 Məndən başqa allahların olmasın.

8 Özün üçün heç bir oyma büt, nə yuxarıda
– səmada və ya aşağıda – yerdə, nə də yerdən
aşağıya yığılan sulardakı şeylərin heç birinin
surətini düzəltmə. 9 Belə şeylərə səcdə qılaraq
ibadət etmə. Çünki Mən sənin Allahın Rəbb
qısqanc Allaham. Mənə nifrət edən ataların
cəzasını üç-dörd nəslə qədər övladlarına
çəkdirərəm. 10 Məni sevib əmrlərimə əməl
edənlərin isə minlərlə nəslinə məhəbbət
göstərərəm.

11 Allahın Rəbbin adını boş yerə dilinə
gətirmə, çünki Rəbb Öz adını boş yerə dilinə
gətirəni cəzasız qoymaz.

12 Allahın Rəbbin sənə etdiyi əmrə əsasən
Şənbə gününü qeyd və təqdis et. 13 Altı gün
çalışıb bütün işlərini gör. 14 Lakin yeddinci
gün Allahın Rəbbin Şənbə günüdür. Bu gün
sən, oğlun, qızın, qulun, qaravaşın, öküzün,
eşşəyin, heç bir heyvanın, yanında qalan
yadellin də heç bir iş görməsin, sənin kimi
qul-qaravaşın da istirahət etsin. 15 Misir
torpağında sənin kölə olduğunu və Allahın
Rəbbin qüvvətli əli, uzanan qolu ilə səni
oradan çıxardığını yadda saxla. Məhz buna
görə Şənbə gününü qeyd etməyi Allahın Rəbb
sənə əmr edib.

16 Allahın Rəbbin əmr etdiyi kimi ata-anana
hörmət et ki, ömrün uzun olsun. Qoy Allahın
Rəbbin sənə verəcəyi torpaqda xoş güzəranın
olsun.

17 Qətl etmə.

18 Zina etmə.

19 Oğurluq etmə.

20 Heç kimə qarşı yalan şahidlik etmə.

21 Heç kimin arvadına tamah salma. Heç
kimin evinə, tarlasına, quluna, qaravaşına,
öküzünə, eşşəyinə – heç bir şeyinə tamah
salma".

22 Rəbb bu sözləri bütün camaatınıza dağda
alovun, buludun və qatı qaranlığın içərisindən
ucadan söylədi, başqa bir söz demədi. Sonra
bunları iki lövhə üzərinə yazıb mənə verdi.

23 Dağ alovlanıb-yanarkən zülmət içindən
siz Onun səsini eşidəndə bütün qəbilə
başçılarınız və ağsaqqallarınız mənə
yaxınlaşdı. 24 Belə dediniz: "Budur, Allahımız
Rəbb bizə ehtişamını və əzəmətini göstərdi.
Alovun içərisindən Onun səsini eşitdik. Bu
gün gördük ki, Allah insanla danışanda insan
sağ qalır. 25 Bu gün niyə ölməliyik? Axı bu
böyük alov bizi külə döndərər. Əgər
Allahımız Rəbbin səsini bir də eşitsək, o
zaman öləcəyik. 26 Bütün bəşəriyyət içərisində
bizim kimi alov içərisindən var olan Allahın
səsini eşidib sağ qalan varmı? 27 Sən Ona
yaxınlaş, Allahımız Rəbbin deyəcəyi hər şeyə
qulaq as. Sonra Allahımız Rəbbin dediyi hər
şeyi bizə söylə! Biz isə buna qulaq asıb əməl
edəcəyik".

28 Rəbb mənə bunları deyəndə bu sözləri siz
də eşitdiniz. Rəbb mənə dedi: "Bu xalqın sənə
söylədiklərini eşitdim. Söylədikləri hər şeyi
yaxşı dedilər. 29 Kaş ki ürəkləri dönməsin,
Məndən qorxsunlar və bütün əmrlərimə əməl
etsinlər. O zaman həm özlərinin, həm də
övladlarının xoş güzəranı olar. 30 Get, onlara
de ki, çadırlarına qayıtsınlar. 31 Sən isə burada
yanımda dayan. Bütün əmrləri, qayda və
hökmləri sənə deyəcəyəm. Sən xalqa öyrət ki,
mülk olaraq almaq üçün onlara verəcəyim
torpaqda bunları yerinə yetirsinlər".
32 Allahınız Rəbbin sizə əmr etdiklərinə
diqqətlə əməl edin, onlardan nə sağa, nə də
sola dönün. 33 Bütünlüklə Allahınız Rəbbin
sizə əmr etdiyi yolda gəzin. Onda sağ
qalarsınız, xoş güzəranınız olar və mülk
olaraq alacağınız torpaqda uzun ömür
sürərsiniz.

---

***5:8-9*** *– Qanun. 4:15-18; 27:15*
***5:9-10*** *– Çıx. 34:6-7; Say. 14:18; Qanun. 7:9-10*
***5:11*** *– Lev. 19:12*
***5:12*** *– Çıx. 16:23-30; 31:12-14*
***5:13-14*** *– Çıx. 23:12; 31:15; 34:21; 35:2; Lev. 23:3*
***5:16*** *– Qanun. 27:16; Mat. 15:4; 19:19; Mrk. 7:10; 10:19; Luk. 18:20; Ef. 6:2*
***5:16*** *– Ef. 6:3*
***5:17*** *– Yar. 9:6; Lev. 24:17; Mat. 5:21; 19:18; Mrk. 10:19; Luk. 18:20; Rom. 13:9; Yaq. 2:11*
***5:18*** *– Lev. 20:10; Mrk. 5:27; 19:18; Mrk. 10:19; Luk. 18:20; Rom. 13:9; Yaq. 2:11*
***5:19*** *– Lev. 19:11; Mat. 19:18; Mrk. 10:19; Luk. 18:20; Rom. 13:9*
***5:20*** *– Çıx. 23:1; Mat. 19:18; Mrk. 10:19; Luk. 18:20*
***5:21*** *– Rom. 7:7; 13:9*
***5:22-27*** *– İbr. 12:18-19*

### *Allahınız Rəbb yeganə Rəbdir*

6 [1] Allahınız Rəbb sizə öyrətmək üçün
mənə bu əmrləri, qayda və hökmləri
buyurmuşdu. Ona görə də mülk olaraq almaq
üçün gedəcəyiniz torpaqda bunlara əməl edin.
[2] Ömrünüz boyu siz, övladlarınız, nəvələriniz
sizə buyurduğum Onun bütün qayda və
əmrlərinə əməl etməklə Allahınız Rəbdən
qorxun ki, ömrünüz uzun olsun. [3] Dinlə, ey
İsrail! Bunlara diqqətlə əməl et ki, atalarının
Allahı Rəbbin sənə söz verdiyi kimi süd və
bal axan torpaqda xoş güzəran görərək
çoxalıb artasan.

[4] Dinlə, ey İsrail! Allahımız Rəbb yeganə
Rəbdir. [5] Allahın Rəbbi bütün qəlbinlə, bütün
varlığınla, var gücünlə sev. [6] Bu gün sənə əmr
etdiyim bu sözlər ürəyində kök salsın.
[7] Bunları övladlarının şüuruna yaxşı-yaxşı
yerit. Evində oturanda, yol gedəndə, yatanda,
duranda bunlar barədə danış. [8] Onları yazıb
qoluna bir nişan kimi, gözlərinin arasına alın
bağı kimi bağla, [9] evlərinin qapı çərçivələrinə
və darvazalarına yaz.

[10] Allahın Rəbb səni ata-babaların İbrahimə,
İshaqa, Yaquba etdiyi anda görə verəcəyi
torpağa aparacaq. Orada inşa etmədiyin
böyük və gözəl şəhərlər, yığmadığın gözəl
şeylərlə dolu evlər, [11] zəhmətini çəkmədiyin
qazılmış su quyuları, salmadığın üzümlüklər
və zeytunluqlar var. Yeyib-doyanda isə
diqqətli ol. [12] Səni Misir torpağından – köləlik
diyarından çıxaran Rəbbi unutma. [13] Allahın
Rəbdən qorx və Ona qulluq et. Andı Onun adı
ilə et.

[14] Yad allahların – başqa xalqların
allahlarının ardınca getmə ki, [15] Allahın
Rəbbin sənə qarşı qəzəbi alovlanmasın və
səni yer üzündən yox etməsin, çünki aranızda
olan Allahın Rəbb qısqanc bir Allahdır.

[16] Allahınız Rəbbi Massada sınadığınız
kimi sınamayın. [17] Ona görə də Allahınız
Rəbbin sizə verdiyi əmrlərə, fərmanlara və
qanunlara diqqətlə əməl edin. [18] Rəbbin
gözündə yaxşı və düzgün sayılana əməl edin
ki, xoş güzəranınız olsun, Rəbbin atalarınıza
və'd etdiyi gözəl torpağı irs olaraq ala
biləsiniz. [19] Rəbb də söz verdiyi kimi bütün
düşmənləri qarşınızdan qovacaq.

### *Rəbbin qanunlarının şərhi*

[20] Əgər gələcəkdə övladlarınız sizə
"Allahımız Rəbbin sizə verdiyi fərmanların,
qayda və hökmlərin mə'nası nədir?" deyə
soruşsa, [21] onlara belə deyin: "Biz Misirdə
fir'onun köləsi idik. Rəbb bizi oradan
qüvvətli əli ilə çıxartdı. [22] Misirdə gözümüzün
önündə Rəbb fir'onla bütün ailəsinə böyük,
dəhşətli əlamətlər və mö'cüzələr göstərdi.
[23] Bizi Misirdən çıxartdı ki, atalarımıza və'd
etdiyi bu torpağa gətirsin və oranı bizə versin.
[24] Allahımız Rəbb bütün bu qaydalara əməl
etməyi və Ondan qorxmağı bizə ona görə əmr
etdi ki, həmişə güzəranımız xoş olsun,
bugünkü kimi bizi sağ saxlasın. [25] Allahımız
Rəbbin hüzurunda bizə buyurduğu bütün bu
əmrlərə diqqətlə əməl etsək, bunu bizə
salehlik sayacaq".

### *Rəbbin Kən'anlıları qovmaq barədəki əmri*

*(Çıx. 34:11-16)*

7 [1] Allahınız Rəbb sizi gedəcəyiniz
torpağa aparır. Siz oranı mülk olaraq
alacaqsınız. O sizin önünüzdən bir çox milləti
– Xetliləri, Qirqaşlıları, Emorluları,
Kən'anlıları, Perizliləri, Xivliləri, Yevusluları
– sizdən xeyli çox, xeyli qüvvətli yeddi
milləti qovacaq. [2] Allahınız Rəbb onları sizə
təslim edəcək. Siz onları məğlub edərək
tamamilə məhv edin. Onlarla əhd bağlamayın
və rəhm etməyin. [3] Onlarla qohum olmayın,
oğullarına qız verib, oğullarınıza onlardan qız
almayın. [4] Çünki onlar övladlarınızı Mənim
ardımca getməkdən döndərib, başqa allahlara
qulluq etdirəcəklər. Onda Rəbbin sizə qarşı
qəzəbi alovlanacaq və tezliklə sizi yox edəcək.
[5] Onlarla belə rəftar edin: qurbangahlarını
dağıdıb daş sütunlarını sındırın, ilahə Aşera
bütlərini baltalayıb oyma bütlərini odda
yandırın.

[6] Çünki siz Allahınız Rəbbin müqəddəs
xalqısınız. O sizi yer üzündəki bütün xalqlar
içərisindən Özünə məxsus xalq olaraq seçdi.
[7] Rəbbin sizi sevməsi, seçməsi o biri

***6:4** – Mrk. 12:29*
***6:5** – Mat. 22:37; Mrk. 12:30; Luk. 10:27*
***6:6-9** – Qanun. 11:18-20*
***6:10** – Yar. 12:7; 26:3; 28:13*
***6:13** – Mat. 4:10; Luk. 4:8*
***6:16** – Mat. 4:7; Luk. 4:12*
***6:16** – Çıx. 17:1-7*

***7:1** – Həv. 13:19-20*
***7:5** – Qanun. 12:3*
***7:6** – Çıx. 19:5; Qanun. 4:20; 14:2; 26:18; Tit. 2:14; 1Pet. 2:9*

xalqlardan daha çox olduğunuz üçün deyil.
Həqiqətən, siz onlardan azsınız. 8 Rəbb sizi
sevdiyi və atalarınıza verdiyi və'di yerinə
yetirmək istədiyi üçün qüvvətli əli ilə sizi
Misirdən çıxartdı. O sizi köləlik diyarından,
Misir padşahı fir'ondan satın aldı. 9 Bilin ki,
Allahınız Rəbb əsl Allahdır. O, vəfalı
Allahdır. Əhdinə sadiq qalıb Onu sevənlərin,
əmrlərini yerinə yetirənlərin minlərlə nəslinə
məhəbbətini göstərər. 10 Ona nifrət edənləri isə
qisas alaraq məhv edəcək. Onlardan qisasını
almağa gecikməyəcək, bunu mütləq edəcək.
11 Ona görə sizə bu gün buyurduğum əmrləri,
qaydaları və hökmləri diqqətlə yerinə yetirin.

12 Əgər bu əmrlərə qulaq asıb diqqətlə əməl
edəcəksinizsə, Allahınız Rəbb ata-
babalarınıza etdiyi anda sadiq qalıb
məhəbbətini göstərəcək. 13 O sizi sevəcək,
bərəkətli edib çoxaldacaq. Sizə vermək üçün
atalarınıza and etdiyi torpaqda, bətninizdən
doğulanlarınızı, torpağınızın bəhrəsini,
buğdanızı, təzə şərabınızı, zeytun yağınızı,
mal-qaranızın və qoyun-keçilərinizin
balalarını bərəkətli edəcək. 14 O biri
xalqlardan daha çox siz xeyir-dua alacaqsınız.
Heç bir kişi və qadınınız sonsuz, heç bir
heyvanınız qısır olmayacaq. 15 Rəbb
üzərinizdən bütün xəstəlikləri götürəcək. Sizi
Misirdə gördüyünüz dəhşətli xəstəliklərin heç
birinə mə'ruz qoymayacaq. Bu bəlalara sizə
nifrət edənləri düçar edəcək. 16 Allahınız
Rəbbin sizə təslim edəcəyi bütün xalqların
axırına çıxacaqsınız. Onlara rəhm etməyin,
allahlarına sitayiş etməyin. Əgər belə etsəniz,
bu sizə tələ olar.

17 Bəlkə düşünürsünüz ki, bu millətlər
bizdən güclüdür, onları necə qova bilərik?
18 Onlardan qorxmayın. Allahınız Rəbbin
fir'ona və bütün Misirlilərə nə etdiyini
xatırlayın. 19 Gözünüzlə gördüyünüz böyük
sınaqları, sizi Misirdən çıxaran zaman
Allahınız Rəbbin göstərdiyi əlamətləri,
mö'cüzələri, qüdrətli əlini, uzanan qolunu
xatırlayın. Hazırda qorxduğunuz xalqların
hamısını Allahınız Rəbb bu hala salacaq.
20 Yerdə qalıb sizdən gizlənənlərin üzərinə də
Allahınız Rəbb eşşəkarısı göndərib hamısını
yox edəcək. 21 Onlardan heç qorxmayın, çünki
aranızda olan Allahınız Rəbb əzəmətli və
zəhmli Allahdır. 22 Allahınız Rəbb yavaş-
yavaş o millətləri qarşınızdan qovacaq. Onları
tezliklə məhv edə bilməyəcəksiniz, yoxsa çöl
heyvanları üstünüzə daraşar. 23 Allahınız Rəbb
onları sizə təslim edəcək və vahiməyə salaraq,
nəhayət, yox edəcək. 24 Onların padşahlarını
da sizə təslim edəcək. Siz də onların adlarını
səma altından siləcəksiniz. Siz onları qırarkən
kimsə qarşınızı ala bilməyəcək. 25 Onların
allah saydıqları oyma bütlərə od vurub
yandırın. Onlara çəkilmiş qızıl-gümüşə
gözünüz düşməsin. Özünüz üçün onlardan
götürməyin, yoxsa tələyə düşərsiniz, çünki
onlar Allahınız Rəbbin gözündə iyrəncdir.
26 Belə iyrənc şeyləri evinizə gətirməyin,
yoxsa siz də onlar kimi məhv olarsınız.
Onlara tamamilə ikrah və nifrət etməlisiniz,
çünki belə təsvirlər məhv olunmağa həsr
olunub.

### *Rəbbi unutmayın*

8 1 Bu gün sizə buyurduğum bütün
əmrləri yerinə yetirməyə çalışın. Onda
yaşayıb çoxalar və Rəbbin atalarınıza və'd
etdiyi torpağa daxil olub irs olaraq oranı
alarsınız. 2 Allahınız Rəbbin sizi qırx il
səhrada gəzdirdiyi uzun səyahəti yada salın.
Bunu ona görə etdi ki, qürurunuzu qırsın və
sizi sınaqdan keçirərək ürəyinizdəkini
öyrənsin; görsün ki, siz Onun əmrlərinə əməl
edəcəksiniz ya yox. 3 Təkəbbürünüzü
sındırmaq üçün sizi ac qoydu, sonra isə nə
sizin, nə də atalarınızın gördüyü manna ilə
sizi qidalandırdı. Bununla göstərdi ki, insan
yalnız çörəklə deyil, Rəbbin ağzından çıxan
hər bir kəlmə ilə yaşaya bilər. 4 Bu qırx il
ərzində paltarınız yırtılıb dağılmadı,
ayaqlarınız şişmədi. 5 Bunu ürəkdən dərk edin
ki, insan öz övladına necə tərbiyə verirsə,
Allahınız Rəbb də sizə elə tərbiyə verir.
6 Allahınız Rəbbin əmrlərinə riayət edib Onun
yolu ilə gedin və Ondan qorxun. 7 Çünki
Allahınız Rəbb sizi gözəl torpağa – çay və
gölləri olan, dərə və təpələrində bulaqlar
çağlayan yerlərə aparır. 8 O torpaq buğda, arpa,
üzüm, əncir, nar, yağlı zeytun və bal yetirir.
9 Ora elə bir torpaqdır ki, orada qıtlıqla çörək
yeməyəcək və heç nəyə möhtac
olmayacaqsınız; daşlarından dəmir,
dağlarından isə mis çıxara biləcəksiniz.

***7:9-10** – Çıx. 20:5-6; 34:6-7; Say. 14:18; Qanun. 5:9-10*
***7:12-16** – Qanun. 11:13-17*

***8:3** – Mat. 4:4; Luk. 4:4*

10 Yeyib-doyanda sizə verdiyi gözəl torpağa
görə Allahınız Rəbbə həmd edəcəksiniz.

### *Təkəbbürdən çəkinin*

11 Ehtiyatlı olun ki, Allahınız Rəbbi
unutmayasınız. Bu gün sizə buyurduğum
Rəbbin əmr, hökm və qaydalarına riayət edin.
12 Yeyib doyanda, gözəl evlər tikib içərisində
oturanda, 13 naxırınız, sürünüz çoxalanda,
qızıl-gümüşünüz və hər şeyiniz artanda
14 ürəyiniz qürurla dolmasın. Diqqət edin ki,
sizi Misir torpağından – köləlik diyarından
çıxaran Allahınız Rəbbi unutmayasınız.
15 Rəbb sizi o böyük və qorxunc səhrada,
zəhərli ilan və əqrəblərlə dolu olan o susuz
şoran torpaqlarda gəzdirdi, sizə sərt
qayalardan su çıxartdı. 16 Sizi atalarınıza
mə'lum olmayan manna ilə qidalandırdı. Xoş
güzəranınız olsun deyə qürurunuzu sındıraraq
sizi sınaqdan keçirdi. 17 Ürəyinizdə "biz öz
qabiliyyətimizlə və biləyimizin gücü ilə bu
sərvəti qazandıq" deməyəsiniz. 18 Unutmayın
ki, bu sərvəti qazanmaq qabiliyyətini sizə
verən Allahınız Rəbdir. O bunu edir ki,
bugünkü kimi atalarınıza və'd verərək sizinlə
kəsdiyi əhdi yerinə yetirsin.
19 Əgər Allahınız Rəbbi unudub başqa
allahların ardınca getsəniz, onlara sitayiş
edərək səcdə etsəniz, bu gün sizin qarşınızda
şəhadət edirəm ki, mütləq məhv olacaqsınız!
20 Allahınız Rəbbin sözünə qulaq asmasanız,
Rəbb sizin qarşınızdan millətləri yox etdiyi
kimi sizi də yox edəcək.

### *İtaətsiz xalq*

9 1 Ey İsraillilər, qulaq asın! Bu gün
sizdən daha böyük, daha qüdrətli
millətlərin torpaqlarını irs olaraq almaq üçün
İordan çayını keçmək ərəfəsindəsiniz. Onların
şəhərləri böyük, hasarları göylərə çatır. 2 Bu
güclü, ucaboy xalq Anaqlılardır. Onları
tanıyırsınız və barələrində belə eşitmisiniz:
"Anaqlıların qarşısında kim dayana bilər?"
3 Bu gün də bilin ki, sizin önünüzdə gedən
Allahınız Rəbb hər şeyi yandırıb-yaxan
alovdur. Rəbb onları qıracaq, qarşınızda
boyun əydirəcək və sizə söylədiyi kimi onları
qovub tezliklə yox edəcəksiniz. 4 Allahınız
Rəbb onları önünüzdən kənara atanda
ürəyinizdə deməyin ki, bu torpağı almaq üçün
Rəbb bizi buraya salehliyimizə görə gətirdi.
Belə ki Rəbb bu millətləri pis əməllərinə görə
önünüzdən qovur. 5 Torpaqlarına girib irs
olaraq oranı almağınız sizin salehliyinizə və
ürəyinizin düzlüyünə görə deyil. Ancaq
Allahınız Rəbb bu millətləri pis əməllərinə
görə sizin qarşınızdan qovacaq ki, ata-
babalarınız İbrahimə, İshaqa, Yaquba verdiyi
və'di yerinə yetirsin.
6 Bilin ki, Allahınız Rəbb salehliyinizə görə
bu gözəl torpağı mülk olaraq almaq üçün sizə
vermir, çünki siz dikbaş bir xalqsınız. 7 Bunu
yada salın və Allahınız Rəbbi səhrada necə
qəzəbləndirdiyinizi unutmayın. Misir
torpağından çıxdığınız gündən bu yerə
gələnədək Rəbbə qarşı nə qədər itaətsizlik
etdiniz. 8 Rəbbi Xorevdə qəzəbləndirdiniz.
Rəbb sizi məhv edəcək qədər hiddətləndi.
9 Mən Rəbbin sizinlə etdiyi əhdin lövhələri
olan daş lövhələri götürmək üçün dağa
çıxanda orada qırx gün-qırx gecə qaldım: nə
çörək yedim, nə də su içdim. 10 Rəbb Allah
mənə Öz barmağı ilə yazdığı iki daş lövhə
verdi. Toplantı olan gün dağda Rəbbin sizə
alovun içindən bildirdiyi bütün əmrlər onların
üzərində yazılmışdı. 11 Rəbb iki daş lövhəni –
əhd lövhələrini qırx gün-qırx gecənin sonunda
mənə verdi.
12 Sonra Rəbb dedi: "Tez ol, dağdan en,
çünki Misirdən çıxardığın xalq əxlaqsızlıq
edir. Onlar buyurduğum yoldan yaman tez
azdılar. Özlərinə tökmə büt yaradıblar".
13 Rəbb mənə bunu da söylədi: "Görürəm ki,
bu xalq dikbaş xalqdır. 14 Qoy onları yox edim.
Adlarını göylərin altından silim. Səndən isə
onlardan daha güclü, daha böyük millət
törədim".
15 Mən dönərək dağdan aşağı endim. Dağ
alovlanıb yanırdı. Əhdin yazıldığı iki lövhə
əlimdə idi. 16 Gördüm ki, Allahınız Rəbbə
qarşı günah edirsiniz. Özünüz üçün
danayabənzər bir tökmə büt düzəltmisiniz və
Rəbbin sizə buyurduğu yoldan yaman tez
azmısınız. 17 Buna görə də əlimdə tutduğum
iki lövhəni atdım və gözünüz önündə onları
parça-parça etdim. 18 Yenə Rəbbin hüzurunda
heç nə yeyib-içmədən qırx gün-qırx gecə yerə
sərilib qaldım, çünki günah etmişdiniz və
Rəbbin gözündə pis sayılan işlər görərək Onu
qəzəbləndirmişdiniz. 19 Rəbbin qızğın qəzəbi

---

***8:11-16** – Huş. 13:5-6*
***9:3** – Qanun. 4:24; İbr. 12:29*
***9:9** – Çıx. 24:18*
***9:19** – İbr. 12:21*

qarşısında qorxdum. Qəzəbi o qədər
alovlanmışdı ki, O sizi yox etmək istəyirdi.
Amma Rəbb yenə də yalvarışımı eşitdi.
20 Rəbb Haruna da hiddətlənmişdi. Onu da
yox etmək istəyirdi. O an Harun üçün də
yalvardım. 21 Etdiyiniz günah əşyasını – o
danayabənzər tökmə bütü götürüb oda atdım
və sındırdım, əzib toza döndərdim. Sonra tozu
dağdan axan selə tökdüm.
22 Siz Taverada, Massada, Qivrot-
Hattaavada da Rəbbi qəzəbləndirdiniz.
23 Rəbb sizi Qadeş-Barneadan yola salarkən
belə buyurmuşdu: "Gedin, sizə verəcəyim
torpağı özünüz üçün irs olaraq alın". Siz isə
Allahınız Rəbbin əmrinə asi çıxdınız, Rəbbə
güvənmədiniz, sözünə qulaq asmadınız. 24 Sizi
tanıyan gündən bu vaxta qədər dayanmadan
Rəbbə asi oldunuz.
25 Rəbb sizi yox edəcəyini söylədiyi üçün
qırx gün-qırx gecə Onun hüzurunda yerə
döşənib qaldım. 26 Rəbbə yalvarıb dedim: "Ya
Xudavənd Rəbb, Misirdən böyük qüdrətinlə,
qüvvətli əlinlə çıxararaq qurtardığın xalqını,
Öz irsini yox etmə. 27 Qulların İbrahimi,
İshaqı, Yaqubu yada sal. Bu xalqın
dikbaşlığına, pisliyinə, günahına nəzər salma.
28 Yoxsa bizi çıxartdığın ölkənin xalqı
deyəcək ki, Rəbb onları və'd etdiyi torpağa
apara bilmədi və bu xalqa nifrət etdiyi üçün
onları səhrada məhv etmək məqsədi ilə
Misirdən çıxartdı. 29 Halbuki onlar Sənin
xalqın, Sənin irsindir. Sən onları böyük
qüdrətinlə, uzanan qolunla Misirdən
çıxartmısan".

### *Musanın yenidən əmr alması*

*(Çıx. 34:1-10)*

10 1 O vaxt Rəbb mənə dedi: "Əvvəlki
kimi özün üçün iki daş lövhə yon və
dağa – yanıma çıx. Ağacdan bir sandıq da
düzəlt. 2 Qırdığın əvvəlki lövhələrdə yazılan
sözləri yeni lövhələrin üstündə yazacağam.
Onları sandığa qoy". 3 Əbrişim ağacından bir
sandıq düzəldib əvvəlki kimi iki daş lövhəni
yondum. Sonra bu iki daş lövhəni əlimə
götürüb dağa çıxdım. 4 Rəbb toplantı olan gün
dağda alovun içindən Özünün sizə bildirdiyi
on əmri bu lövhələr üzərinə yenə də əvvəlki
kimi yazdı və mənə verdi. 5 Mən dönüb
dağdan enərək Rəbbin mənə əmr etdiyi kimi
bu lövhələri düzəltdiyim sandığa qoydum və
həmin lövhələr orada qaldı.
6 İsrail övladları Yaaqan övladlarına
məxsus quyular olan yerdən Moseraya
köçdülər. Harun orada ölüb dəfn olundu.
Onun yerinə oğlu Eleazar kahin oldu.
7 Oradan Qudqodaya və Qudqodadan da axar
sular diyarı olan Yotvataya köçdülər. 8 O
zaman Rəbb Levi qəbiləsini ayırdı ki, Rəbbin
Əhd sandığını daşısınlar, Rəbbə xidmət
edərək Onun adı ilə xeyir-dua verərək
hüzurunda dayansınlar. Onlar bu günədək
eyni işi görürlər. 9 Elə buna görə də Levililərə
İsrailli soydaşları ilə birlikdə pay və irsi
torpaq düşmədi. Allahınız Rəbbin onlara
söylədiyi kimi onların irsi Rəbdir.
10 Əvvəlki kimi yenə də qırx gün-qırx gecə
dağda qalmışdım. Rəbb bu dəfə də məni
dinlədi və ona görə sizi qırmaq istəmədi.
11 Rəbb mənə dedi: "Qalx köçən xalqın
qarşısında get ki, atalarına və'd edib söz
verdiyim torpağa daxil olub oranı irs olaraq
alsınlar".
12 İndi, ey İsrail, axı Allahın Rəbb səndən
nə istəyir? Yalnız bunu istəyir: Ondan qorx,
tamamilə Onun yolunu tut, Onu sev, bütün
qəlbinlə və bütün varlığınla Allahın Rəbbə
sitayiş et. 13 Bu gün xoş güzəranın üçün sənə
buyurduğum Rəbbin əmr və qaydalarına
riayət et.
14 Bax göylər, göylərin ən uca qatları belə,
yer üzü və yer üzərində olan hər şey Allahın
Rəbbindir. 15 Lakin Rəbb atalarınıza şəfqətli
olmuşdur. Onları sevib sonrakı nəsil olan sizi
bugünkü kimi bütün xalqlar arasından seçdi.
16 Elə buna görə ürəklərinizi sünnət edin[1] ki,
bir daha dikbaş olmayasınız. 17 Çünki
Allahınız Rəbb allahların Allahı,
hökmranların Hökmranıdır. O tərəfkeşlik
etməyən, rüşvət almayan, əzəmətli, qüdrətli,

***9:21*** *– Çıx. 32:20*
***9:22*** *– Say. 11:3*
***9:22*** *– Say. 17:7*
***9:22*** *– Say. 11:34*
***9:23*** *– Say. 13:25-14:38*
***9:23*** *– Qanun. 1:21*
***9:23*** *– Say. 13:31; Qanun. 1:26; İbr. 3:16*

***10:6*** *– Say. 20:28; 33:38*
***10:8*** *– Say. 3:5-8*
***10:9*** *– Qanun. 18:2*
***10:10*** *– Çıx. 34:28*
[1] **10:16** *Ürəklərinizi sünnət edin,* yə'ni *ürəklərinizi həsr edin.*
***10:17*** *– 1Tim. 6:15; Vəhy 17:14; 19:16*
***10:17*** *– Həv. 10:34-35; Rom. 2:11; Qal. 2:6, Ef. 6:9*

zəhmli Allahdır. 18 O, yetimin və dul qadının
haqqını qoruyur. Qəribi sevir, ona çörək və
paltar verir. 19 Siz də qəribi sevin, çünki
özünüz də Misir ölkəsində qərib idiniz.
20 Allahınız Rəbdən qorxun, Ona sitayiş
edərək sadiq qalın və yalnız Onun adı ilə and
için. 21 Ona həmişə həmd edin. Gözünüzlə
gördüyünüz əzəmətli və zəhmli əlamətləri
edən Allahınızdır. 22 Atalarınız yetmiş nəfər
olaraq Misirə getmişdi. İndi isə Allahınız
Rəbb sizi çoxaldaraq göydəki ulduzlar qədər
edib.

### *Və'd olunan torpağa Rəbbin verəcəyi bərəkət*

11 1 Allahınız Rəbbi sevin. Həmişə
Onun buyruq, qayda, hökm və
əmrlərinə əməl edin. 2 Bu gün yadda saxlayın
ki, Allahınız Rəbbin tə'limini öyrənib
sınaqdan keçirən övladlarınız deyil, sizsiniz.
Onun əzəmətini, qüdrətli əlini, uzanan qolunu,
3 Misirdə fir'ona və bütün torpağına etdiyi
əlamətləri, gördüyü işləri, 4 Misir ordusuna,
onların atlarına, döyüş arabalarına nə etdiyini,
ardınızca düşərkən onları Qırmızı dənizin
sularında necə qərq etdiyini, Rəbbin onları bu
günədək davam edən bir qırğına necə düçar
etdiyini 5 və səhrada, bu yerə çatanadək sizin
üçün nə etdiyini, 6 Ruvenli Eliavın oğullarına
– Datana və Avirama nə etdiyini gördünüz:
bütün İsraillilərin arasında yeri yardı, onları
və evindəkiləri çadırları ilə bərabər onlara
məxsus olan bütün canlıları uddu. 7 Siz
Rəbbin etdiyi bu əzəmətli işlərin hamısını öz
gözlərinizlə görürsünüz.

8 Bu gün sizə buyurduğum əmrlərin
hamısına əməl edin ki, qüvvətli olasınız və
mülk olaraq almaq üçün İordan çayını
keçəcəyiniz torpağa girib oranı zəbt edəsiniz.
9 Rəbbin atalarınıza və onların övladlarına
və'd etdiyi südlə bal axan torpaqda uzun ömür
sürəsiniz. 10 Çünki mülk olaraq almaq üçün
girəcəyiniz torpaq çıxmış olduğunuz Misir
ölkəsinə bənzəmir. Orada toxumunuzu
əkirdiniz, bostan kimi ayağınızla sulayırdınız.
11 Amma mülk olaraq almağa gedəcəyiniz
torpaq dağlı-dərəli bir diyardır. Bu torpaq
göydən yağış suyu içər. 12 Ora Allahınız
Rəbbin lütf göstərdiyi elə bir torpaqdır ki, ilin
əvvəlindən sonuna qədər Allahınız Rəbbin
nəzəri altındadır.

13 Rəbb deyir: "Əgər bu gün sizə
buyurduğum əmrlərə yaxşı qulaq assanız,
Allahınız Rəbbi sevib bütün qəlbinizlə, bütün
varlığınızla ona sitayiş etsəniz, 14 o zaman
Mən torpağınıza yağışı – ilk yağışla son
yağışı vaxtlı-vaxtında verəcəyəm. Onda
taxılınızı, təzə şərabınızı və zeytun yağınızı
yığacaqsınız. 15 Çöldə heyvanlarınıza ot
verəcəyəm. Siz doyunca yeyəcəksiniz".
16 Onda məbada ürəyiniz aldansın, azmayın,
başqa allahlara səcdə və sitayiş etməyin.
17 Belə etsəniz, Rəbbin sizə qarşı qəzəbi
alovlanacaq. O, göyləri bağlayıb yağış
yağdırmayacaq, torpağınızı məhsulsuz
qoyacaq və tezliklə Rəbbin sizə verdiyi o
gözəl torpaqdan yox olacaqsınız.

18 Buna görə də mənim bu sözlərimi
ürəyinizdə və ağlınızda saxlayın, qolunuza bir
nişan kimi, gözlərinizin arasına alın bağı kimi
bağlayın, 19 övladlarınıza öyrədin. Evinizdə
oturanda, yol gedəndə, yatanda, duranda
bunlar barədə danışın. 20 Onları evlərinizin
qapı çərçivələrinə, şəhərlərinizin
darvazalarına yazın. 21 Belə etsəniz, Rəbbin
atalarınıza və'd etdiyi torpaqlarda sizin də,
övladlarınızın da ömrü uzun olar və göy yer
üzərində durduqca orada yaşayarsınız.

22 Əməl etməniz üçün sizə buyurduğum
bütün bu əmrləri diqqətlə yerinə yetirsəniz,
Allahınız Rəbbi sevib Onun yolları ilə
getsəniz və yalnız Ona bağlı qalsanız, 23 onda
Rəbb qarşınızdan bütün millətləri qovacaq və
sizdən daha böyük, daha güclü millətlərin
torpaqlarını mülk olaraq alacaqsınız. 24 Ayaq
basdığınız hər yer sizin olacaq. Sərhədiniz
səhradan Livana, Fərat çayından Qərb
dənizinə[2] qədər uzanacaq. 25 Sizin qarşınızda
heç kim dayana bilməyəcək. Allahınız Rəbb
sizə və'd etdiyi kimi ayaq basacağınız hər
yerə vahimə və qorxunuzu yayacaq.

26 Budur, bu gün qarşınıza bərəkət və lə'nəti
qoyuram. 27 Allahınız Rəbbin əmrlərinə, bu
gün sizə buyurduğum əmrlərə qulaq assanız,
bərəkət tapacaqsınız. 28 Əgər Allahınız Rəbbin

***10:22** – Yar. 46:27*
***10:22** – Yar. 15:5; 22:17*
***11:3** – Çıx. 7:8-12:13*
***11:4** – Çıx. 14:28*
***11:6** – Say. 16:31-32*
***11:13-17** – Lev. 26:3-5; Qanun. 7:12-16; 28:1-14*
***11:18-20** – Qanun. 6:6-9*
***11:24-25** – Yeşua 1:3-5*
[2] **11:24** *Qərb dənizi* – Aralıq dənizi.

əmrlərini dinləməsəniz, tanımadığınız başqa
allahların ardınca gedərək bu gün sizə
buyurduğum yoldan azsanız, lə'nətə düçar
olacaqsınız. 29 Allahınız Rəbb mülk olaraq
almaq üçün girəcəyiniz torpağa sizi aparanda
Gerizim dağında xeyir-dua, Eval dağında isə
lə'nət oxuyacaqsınız. 30 Bu iki dağ İordan
çayının qarşı tayında, yolun şərqində –
Aravada yaşayan Kən'anlılar ölkəsində,
Qilqal qarşısında, More palıdlarının
yanındadır. 31 Allahınız Rəbbin sizə verəcəyi
torpağı irs olaraq almaq üçün İordan çayını
keçmək ərəfəsindəsiniz. Oranı ələ keçirib
yerləşəndə 32 bu gün önünüzə qoyacağım
bütün qayda və hökmləri yerinə yetirmək
üçün diqqətli olun.

### *Tək ibadət yeri*

12 1 Atalarınızın Allahı Rəbbin mülk
olaraq almaq üçün sizə verəcəyi
torpaqda ömür boyu bu qaydalara və
hökmlərə riayət edin. 2 Hansı millətlərin
torpaqlarını alacaqsınızsa, allahlarına səcdə
etdikləri uca dağlarda, təpələrdə, kölgəli hər
ağacın altında olan bütün yerləri mütləq viran
qoyun. 3 Qurbangahlarını dağıdıb, daş
sütunları sındırın, ilahə Aşera bütlərini odda
yandırıb allah saydıqları oyma bütləri
baltalayın və adlarını o yerlərdən silin.

4 Allahınız Rəbbə bu cür pərəstiş etməyin.
5 Allahınız Rəbbin adını qoymaq üçün bütün
qəbilələriniz arasından seçəcəyi yeri, Onun
məskənini axtarın və oraya gedin. 6 Yandırma
qurbanlarınızı, ünsiyyət qurbanlarınızı,
qazancınızın onda bir hissəsini, qaldırma
təqdimlərinizi, əhd etdiklərinizi, könüllü
təqdimlərinizi, mal-qara və qoyun-
keçilərinizin ilk balalarını oraya gətirin.
7 Orada sizə bərəkət verən Allahınız Rəbbin
önündə ailələrinizlə birlikdə yemək
yeyəcəksiniz. Onda hansı işə əl atacaqsınızsa,
sevinc tapacaqsınız.

8 Bu gün burada etdiklərinizi orada etməyin.
Burada hər kəs öz nəzərində nəyi düz sayırsa,
onu da edir. 9 Çünki hələ Allahınız Rəbbin
sizə verəcəyi rahatlığa və irs torpağa
çatmamısınız. 10 Amma İordan çayını keçib
Allahınız Rəbbin irs olaraq sizə verəcəyi
torpaqda məskunlaşacaqsınız. Rəbb sizi
ətrafınızdakı bütün düşmənlərdən qurtararaq
rahatlıq verəcək və əmin-amanlıq içərisində
yaşayacaqsınız. 11 O zaman sizə əmr etdiyim
hər şeyi – yandırma təqdimlərinizi, ünsiyyət
qurbanlarınızı, qazancınızın onda bir hissəsini,
qaldırma təqdimlərinizi və Rəbbə həsr
etdiyiniz bütün seçmə təqdimlərinizi
Allahınız Rəbbin Öz isminə məskən seçəcəyi
yerə gətirəcəksiniz. 12 Allahınız Rəbbin
qarşısında siz, oğullarınız, qızlarınız,
qullarınız, qaravaşlarınız, şəhərlərinizdə
yaşayan sizinlə birgə payı və irsi torpağı
olmayan Levililər qoy sevinsin. 13 Ehtiyatlı
olun! Hər gördüyünüz yerdə yandırma
qurbanlarınızı təqdim etməyin. 14 Yandırma
qurbanlarınızı qəbilələrinizin birində Rəbbin
seçəcəyi yerdə təqdim edin. Sizə əmr etməkdə
olduğum hər şeyi orada edəcəksiniz.

15 Ancaq Allahınız Rəbbin sizə verdiyi
bərəkətə görə yaşadığınız şəhərlərdə ürəyiniz
istəyən qədər heyvan kəsib ətindən yeyə
bilərsiniz. Pak yaxud murdar insan bu əti
ceyran və ya maral əti yediyiniz kimi yeyə
bilər. 16 Qanını isə yeməyin, su kimi yerə
tökün. 17 Taxılınızın, təzə şərablarınızın,
zeytun yağınızın onda bir hissəsini, mal-qara
və qoyun-keçilərinizin ilk balalarını, əhd
etdiklərinizin hamısını, könüllü təqdimlərinizi,
qaldırma təqdimlərinizi yaşadığınız şəhərlərdə
yeməyin. 18 Siz, oğullarınız, qızlarınız, qul və
qaravaşlarınız, şəhərlərinizdə yaşayan
Levililər bunları Allahınız Rəbbin hüzurunda,
Onun seçəcəyi yerdə yeyəcəksiniz. Allahınız
Rəbbin hüzurunda hansı işə əl atsanız, sevinc
tapacaqsınız. 19 Ehtiyatlı olun! Bu torpaqda
yaşadığınız müddətdə Levililərə e'tinasız
yanaşmayın.

20 Allahınız Rəbbin sizə və'd etdiyi kimi
sərhədinizi genişləndirəndə ət yemək
istəyərək "gəlin ət yeyək" desəniz, ürəyiniz
istəyən qədər ət yeyə bilərsiniz. 21 Allahınız
Rəbbin adını qoymaq üçün seçdiyi yer sizdən
uzaqdırsa, əmr etdiyim kimi Rəbbin verdiyi
naxırlardan, sürülərdən heyvan kəsib öz
şəhərlərinizdə ürəyiniz istəyən qədər ət yeyə
bilərsiniz. 22 Pak yaxud murdar insan bu əti
ceyran və ya maral əti kimi yeyə bilər.
23 Lakin ehtiyatlı olun ki, əti qanlı-qanlı
yeməyəsiniz, çünki ətə can verən qandır. Ətlə
birlikdə canı yeməyin. 24 Qanı yeməyin, su

---

***11:29*** *– Qanun. 27:11-14; Yeşua 8:33-35*
***12:3*** *– Qanun. 7:5*

***12:16*** *– Yar. 9:4; Lev. 7:26-27; 17:10-14; 19:26; Qanun. 15:23*
***12:23-24*** *– Lev. 17:10-14*

kimi yerə tökün. [25] Qan yeməyin. Belə etsəniz, Rəbbin gözündə doğru olanı etmiş olarsınız. Onda həm sizin, həm də sizdən sonra gələn övladlarınızın xoş güzəranı olar.

[26] Müqəddəs təqdimlərinizi, əhd etdiyiniz təqdimləri götürüb Rəbbin seçəcəyi yerə
gedin. [27] Yandırma qurbanlarınızı, əti və qanı Allahınız Rəbbin qurbangahında təqdim edin. Qurbanlarınızın qanı Allahınız Rəbbin qurbangahında tökülsün. Ətini isə yeyə
bilərsiniz. [28] Sizə çatdırdığım bütün bu əmrlərə düzgün əməl edin. Allahınız Rəbbin gözündə yaxşı və doğru işlər gördüyünüz üçün sizin və sizdən sonra gələn övladlarınızın həmişə xoş güzəranı olar.

### *Başqa allahlara səcdə etməyin*

[29] Allahınız Rəbb torpaqlarını almağa gedəcəyiniz millətləri qarşınızdan yox edəcək. Torpaqlarını irs olaraq alıb orada yaşayanda,
[30] onları yox edəndə ehtiyatlı olun ki, onların fe'linə düşməyəsiniz. "Bu millətlər allahlarına necə sitayiş edirdilərsə, biz də elə edək" deyərək onların allahlarına müraciət etməyin.
[31] Allahınız Rəbbə bu cür pərəstiş etməyin. Onlar öz allahları üçün Rəbbin nifrət etdiyi iyrənc işləri görürlər. Belə ki oğullarını, qızlarını odda yandıraraq allahlarına qurban verirlər.

[32] Sizə buyurduğum bütün əmrlərə diqqətlə əməl edin. Onlardan nəyisə əskildib, onlara nəyisə artırmayın.

13 [1] Əgər aranızdan bir peyğəmbər yaxud bir rö'ya görən çıxıb sizə bir əlamət ya da mö'cüzə olacağını söyləyərsə,
[2] sonra "tanımadığınız yad allahların ardınca gedək və onlara sitayiş edək" deyərsə, bəhs etdiyi əlamət və ya mö'cüzə həyata keçsə də,
[3] belə peyğəmbərin yaxud rö'ya görənin sözlərinə qulaq asmayın. Bilin ki, Allahınız Rəbb sizi sınayır, görmək istəyir, siz Allahınız Rəbbi bütün qəlbinizlə, bütün
varlığınızla sevirsinizmi? [4] Siz Allahınız Rəbbin ardınca gedin və Ondan qorxun. Onun əmrlərinə əməl edib sözlərinə qulaq asın,
Rəbbə sitayiş edərək Ona bağlı qalın. [5] O peyğəmbər yaxud rö'ya görən isə öldürülsün, çünki sizi Misir ölkəsindən çıxaran və köləlik diyarından qurtaran Allahınız Rəbbə qarşı getməyə sövq edirdi. Onlar sizi Allahınız Rəbbin əmr etdiyi yolla getməkdən azdırmaq istəyirdi. Bu cür pisliyi aranızdan yox edin.

[6] Hətta bir anadan doğulan qardaşınız, öz oğlunuz və ya qızınız, qoynunuzdakı arvadınız ya da candan əziz dostunuz sizi gizlicə başdan çıxarmaq üçün sizə və
atalarınıza namə'lum olan allahlardan, [7] ətraf xalqların, dünyanın bu başından o biri başına qədər sizə yaxın və ya uzaq xalqların allahlarından bəhs edib "gedək yad allahlara
sitayiş edək" desə, [8] ona uyaraq qulaq asmayın. Ona heyfiniz gəlməsin, acımayın, onu
qorumayın. [9] Mütləq onu öldürün. Əvvəlcə siz, sonra bütün xalq qoy onu daşqalaq etsin.
[10] Sizi Misir ölkəsindən, köləlik diyarından çıxaran Allahınız Rəbdən ayırmaq üçün çalışdığına görə onu daşqalaq edib öldürün.
[11] Onda bunun sorağını alan bütün İsraillilər qorxacaq və bir də aranızda buna bənzər pis işlər olmayacaq.

[12] Allahınız Rəbbin sizə yaşamaq üçün
verəcəyi şəhərlərin birində [13] sizin aranızdan yaramaz adamlar çıxıb "tanımadığınız yad allahların ardınca gedək və onlara sitayiş edək" deyərək şəhərlərində yaşayan xalqı
azdırdıqlarını eşitsəniz, [14] bunu araşdıraraq yaxşı-yaxşı tədqiq edin. Eşitdikləriniz doğrudursa və aranızdan birisinin belə iyrənc
iş gördüyü sübut edilərsə, [15] mütləq o şəhərdə yaşayanları qılıncdan keçirin. Şəhəri tamamilə məhv edib oradakı bütün xalqı və heyvanları
qılıncdan keçirin. [16] Talan mallarının hamısını toplayıb meydanın ortasına yığın. Şəhəri və malların hamısını Allahınız Rəbb üçün tamamilə yandırın. Qoy bu şəhər əbədi olaraq viranəliyə çevrilsin və yenidən bərpa
edilməsin. [17] Məhv edilməyə həsr edilən mallardan heç nəyi özünüz üçün götürməyin. Onda Rəbbin qızğın qəzəbi yatar və atalarınıza and edib söz verdiyi kimi sizə rəhm edər və mərhəmət göstərərək sizi
çoxaldar. [18] Ona görə ki siz Allahınız Rəbbin sözünü dinləyirsiniz. Beləliklə, bu gün sizə buyurduğum əmrlərə əməl edib Rəbbin gözündə doğru olanı etmiş olacaqsınız.

### *Qadağan olan matəm ən'ənəsi*

14 [1] Siz Allahınız Rəbbin övladlarısınız. Ölən üçün bədəninizi

***12:32*** *– Qanun. 4:2; Vəhy 22:18-19*
***13:5*** *– Qanun. 17:7; 1Kor. 5:13*

***14:1*** *– Lev. 19:28; 21:5*

yaralamayın və saçınızın ön tərəfini
qırxmayın. 2 Axı siz Allahınız Rəbbin
müqəddəs xalqısınız. Rəbb yer üzərində olan
bütün xalqlar arasından sizi Özünə məxsus
xalq olaraq seçdi.

### *Əti yeyilən və yeyilməyən heyvanlar*

*(Lev. 11:1-47)*

3 Murdar şeylər yeməyin. 4 Bu heyvanların
ətini yeyə bilərsiniz: öküz, qoyun, keçi,
5 maral, ceyran, xallı maral, dağ keçisi, geyik,
cüyür, dağ qoyunu. 6 Heyvanlardan
qoşadırnaqlı, gövşəyən heyvanların hamısının
ətindən yeyə bilərsiniz. 7 Lakin gövşəyən
yaxud qoşadırnaqlı olan bu heyvanların –
dəvə, dovşan, qayadovşanının ətini yeməyin,
çünki onlar gövşəyir, lakin qoşadırnaqlı deyil,
buna görə sizin üçün haramdır. 8 Donuz isə
qoşadırnaqlı olsa da, gövşəmir, o sizin üçün
haramdır. Onların nə ətini yeyin, nə də leşinə
toxunun.

9 Sularda yaşayan heyvanlardan üzgəcləri
və pulcuqları olanların hamısını yeyə
bilərsiniz. 10 Amma üzgəcləri və pulcuqları
olmayanların hamısı sizə haram sayılır,
yeməyin.

11 Bütün pak quşların ətindən yeyə
bilərsiniz. 12 Lakin bu quşların ətini
yeməməlisiniz: qartal, keçələkərkəs, qaraquş,
13 çalağan, şahin, bütün çalağan cinsindən
olanlar, 14 bütün qarğa cinsindən olanlar,
15 dəvəquşu, bayquş, qağayı, bütün qırğı
cinsindən olanlar, 16 yapalaq, böyük bayquş,
ağ bayquş, 17 qutan, leş kərkəsi, qarabatdaq,
18 leylək, bütün vağ cinsindən olanlar,
şanapipik, yarasa. 19 Bütün qanadlı qaynaşan
heyvanlar sizin üçün haramdır, yeməyin.
20 Qanadı olan pak heyvanların hamısını yeyə
bilərsiniz.

21 Ölü halda tapılan heyvan ətindən
yeməyin. Şəhərinizdə olan əcnəbiyə verə
bilərsiniz ki, yesin yaxud da yadellilərə sata
bilərsiniz. Siz isə Allahın müqəddəs xalqısınız.
Oğlağı anasının südündə bişirməyin.

### *Ondabir hissəyə aid qayda*

22 İlbəil tarlalarınızda bitən bütün
məhsulların onda bir hissəsini mütləq ayırın.
23 Daim Allahınız Rəbdən qorxmağı
öyrənmək üçün taxılınızın, təzə şərabınızın,
zeytun yağınızın onda bir hissəsini, mal-
qaranızın, qoyun-keçilərinizin ilk balalarını
Allahınız Rəbbin qarşısında, Öz isminə
məskən seçdiyi yerdə yeyin. 24 Allahınız
Rəbbin Öz isminə məskən seçdiyi yer sizdən
çox uzaqdadırsa, Allahınız Rəbbin sizə
bərəkət verdiyi məhsulların onda bir hissəsini
siz oraya apara bilməyəcək qədər yol
uzundursa, 25 o zaman bunları satıb pula
çevirin və bu pulu götürüb Allahınız Rəbbin
seçəcəyi yerə gedin. 26 Pulu ürəyiniz istəyəni
almağa sərf edin: mal-qara, qoyun-keçi, şərab,
kefləndirici içki – ürəyiniz nə istəyirsə, alın.
Siz və külfətiniz orada Allahınız Rəbbin
qarşısında yeyib sevinin. 27 Şəhərlərinizdə
yaşayan Levililərə e'tinasız yanaşmayın,
çünki onların sizinlə birgə payı və irsi torpağı
yoxdur.

28 Hər üç ilin sonunda – üçüncü ildə bitən
bütün məhsulunuzun onda bir hissəsini
çıxarıb şəhərlərinizdə toplayın. 29 Sizinlə birgə
payı və irsi torpağı olmayan Levililər,
şəhərlərinizdə olan qəriblər, yetimlər və dul
qadınlar qoy gəlib bundan doyunca yesinlər.
Belə edin ki, Allahınız Rəbb sizə əlinizin
bütün zəhmətinə xeyir-dua versin.

### *Borcların bağışlanma ili*

*(Lev. 25:1-7)*

15
1 Hər yeddi ilin sonunda sizə borclu
olanları bağışlayın. 2 Borcların
bağışlanma işini belə edin: hər alacağı olan
şəxs qonşusunun borcunu bağışlasın.
Qonşusunu yaxud soydaşını borcunu geri
qaytarmağa məcbur etməsin, çünki Rəbb
tərəfindən borcların bağışlanma ili e'lan
edilmişdir. 3 Yadellilərdən borclarınızı geri ala
bilərsiniz, lakin İsrailli soydaşlarınızın
borclarını bağışlamalısınız. 4 Onda aranızda
kasıb olmaz. Əgər Allahınız Rəbbin sizə mülk
olaraq almaq üçün verəcəyi torpaqda 5 Onun
sözünə tam itaət etsəniz, bu gün sizə
buyurduğum əmrlərin hamısına diqqətlə əməl
etsəniz, 6 Allahınız Rəbb sizə və'd verdiyi
kimi mütləq bərəkət verəcək. Siz bir çox
millətlərə borc verəcək, lakin onlardan borc
almayacaqsınız. Siz bir çox millətlərə
hökmranlıq edəcəksiniz, onlar sizə
hökmranlıq etməyəcək.

---

***14:2** – Çıx. 19:5-6; Qanun. 4:20; 7:6; 26:18; Tit. 2:14; 1Pet. 2:9*
***14:21** – Çıx. 23:19; 34:26*
***14:22-29** – Lev. 27:30-33; Say. 18:21*

[7] Allahınız Rəbbin sizə verəcəyi torpağın
hər hansı bir şəhərində yaşayan
soydaşlarınızdan biri kasıbdırsa, daşürəkli
olmayın. Məzlum soydaşınıza qarşı əliniz
bağlı olmasın. [8] Əksinə, əliaçıq olun, nəyə
ehtiyacı varsa, ona lazımınca borc verin.
[9] Məbada "yeddinci il – borcların bağışlanma
ili yaxındır" deyərək ürəyinizə pis fikirlər
gətirəsiniz. Soydaşınız üçün xəsislik etməyin,
ona kömək etməkdən boyun qaçırmayın.
Yoxsa məzlum soydaşınız sizdən Rəbbə
şikayət edər və günah qazanarsınız. [10] Kasıba
səxavətlə, könüllü surətdə yardım edin, çünki
buna görə Allahınız Rəbb bütün əməyinizə, əl
atdığınız hər işə bərəkət verəcək. [11] Ölkədə
həmişə kasıblar olacaq, buna görə mən sizə
belə əmr edirəm: mütləq öz ölkənizdəki kasıb
və möhtac soydaşınıza qarşı əliaçıq olun.

### *Qullar haqqında*

*(Çıx. 21:1-11)*

[12] Əgər İbrani soydaşlarınızdan bir kişi və
yaxud qadın sizə qul kimi satılıbsa, bu qul altı
il sizə qulluq edəndən sonra yeddinci il onu
azad edin. [13] Azad edərkən onları əliboş yola
salmayın. [14] Səxavət göstərib sürülərinizdən,
taxılınızdan, şərabınızdan onlara verin.
Allahınız Rəbb sizə necə bərəkət veribsə, siz
də onlara elə verin. [15] Misirdə kölə
olduğunuzu, Allahınız Rəbbin sizi
qurtardığını yada salın. Bu gün ona görə bu
əmri verirəm.

[16] Əgər qulunuz sizi və külfətinizi sevirsə,
sizinlə güzəranı xoşdursa və "sizdən ayrılmaq
istəmirəm" deyirsə, [17] onda bir biz götürüb
qulunuzun qulağından keçirərək qapıya
batırın. Bundan sonra o ömrü boyu qulunuz
olaraq qalacaq. Qaravaşlarınızla da bu cür
rəftar edin. [18] Qullarınızı azad etmək sizə çətin
gəlməsin. Sizə qulluq etdiyi altı il ərzində
muzdlu işçidən ikiqat artıq iş görmüşdür. Sizə
Allahınız Rəbb hər işdə bərəkət verəcək.

### *İlk dəfə doğan heyvanlar*

[19] Mal-qara və qoyun-keçilərinizin ilk
doğulan balalarından hər erkək heyvanı
Allahınız Rəbb üçün təqdis edin.
Öküzlərinizin ilk balalarını işlətməyin, qoyun-
keçilərinizin ilk balalarını qırxmayın. [20] Siz
ailələrinizlə birgə hər il Allahınız Rəbbin
önündə, Onun seçəcəyi yerdə bu heyvanların
ətini yeyin. [21] Bir heyvanın qüsuru varsa,
axsaq yaxud kordursa, hansısa ciddi
çatışmazlığı varsa, onu Allahınız Rəbbə
qurban etməyin. [22] Belə heyvanları kəsib
şəhərlərinizdə yeyə bilərsiniz. Pak və yaxud
murdar insan bu ətdən ceyran və ya maral əti
yediyi kimi yeyə bilər. [23] Qanını isə yeməyin,
onu su kimi torpağa tökün.

### *Pasxa bayramı*

*(Çıx. 12:1-20)*

16 [1] Aviv ayını qeyd edin və Allahınız
Rəbbin Pasxa bayramını keçirin.
Allahınız Rəbb sizi Misirdən Aviv ayında
gecə ikən çıxartdı. [2] Allahınız Rəbbin Öz
isminə məskən seçəcəyi yerdə qoyun-
keçilərinizdən, mal-qaranızdan Pasxa qurbanı
kəsin. [3] Qurban əti ilə birlikdə mayalı çörək
yeməyin. Misirdən tələsik çıxdığınıza görə
əziyyət içərisində yediyiniz çörək kimi yeddi
gün mayasız çörək, yə'ni əziyyət çörəyi yeyin.
Bununla ömür boyu Misirdən çıxdığınız günü
yada salın. [4] Ölkənizin heç bir yerində yeddi
gün mayadan istifadə olunmasın. Qurban
kəsdiyiniz heyvanların əti axşamdan sabaha
qalmasın.

[5] Pasxa qurbanlarını Allahınız Rəbbin sizə
verəcəyi şəhərlərin heç birində kəsməyin,
[6] ancaq Allahınız Rəbbin Öz isminə məskən
seçəcəyi yerdə kəsin. Orada qurbanları axşam,
gün batanda, Misirdən çıxdığınız saatlarda
kəsin. [7] Əti Allahınız Rəbbin seçəcəyi yerdə
bişirib yeyin. Səhər açılanda isə oradan çıxıb
çadırlarınıza qayıdın. [8] Altı gün mayasız çörək
yeyin. Yeddinci gün Allahınız Rəbb üçün
təntənəli toplantı keçirin və heç bir iş
görməyin.

### *Həftələr bayramı*

*(Çıx. 34:22; Lev. 23:15-21)*

[9] Əkinə oraq vurduğunuz ilk gündən yeddi
həftə sayın və [10] Allahınız Rəbbin sizə verdiyi
bərəkətə görə könüllü təqdim verməklə
Allahınız Rəbb üçün Həftələr bayramı keçirin.
[11] Allahınız Rəbbin qarşısında – Onun Öz
isminə məskən seçəcəyi yerdə siz, oğullarınız,
qızlarınız, qullarınız, qaravaşlarınız,

***15:7-8** – Lev. 25:35*
***15:11** – Mat. 26:11; Mrk. 14:7; Yəh. 12:8*
***15:12** – Çıx. 21:2*
***15:12-18** – Lev. 25:39-46*
***15:19** – Çıx. 13:12*
***15:23** – Yar. 9:4; Lev. 7:26-27; 17:10-14; 19:26; Qanun. 12:16,23-25*

şəhərlərinizdə yaşayan Levililər, aranızda
yaşayan qəriblər, yetimlər və dul qadınlar
birlikdə sevinəcəksiniz. 12 Misirdə kölə
olduğunuzu yada salın və bu qaydalara
diqqətlə əməl edin.

### *Çardaqlar bayramı*

*(Lev. 23:33-43)*

13 Xırmanınızdan, üzümsıxanınızdan
məhsul götürəndən sonra özünüz üçün yeddi
gün Çardaqlar bayramı keçirin. 14 Bu
bayramda siz, oğullarınız, qızlarınız,
qullarınız, qaravaşlarınız, şəhərlərinizdə
yaşayan Levililər, qəriblər, yetimlər və dul
qadınlarla birlikdə sevinəcəksiniz. 15 Allahınız
Rəbbin seçəcəyi yerdə Rəbb üçün yeddi gün
bu bayramı keçirin, çünki Allahınız Rəbb
bütün məhsullarınıza, əllərinizin hər işinə
xeyir-dua verib və siz tam sevinc içində
yaşayacaqsınız.

16 Bütün kişiləriniz ildə üç dəfə Mayasız
Çörək bayramında, Həftələr bayramında,
Çardaqlar bayramında Allahınız Rəbbin
hüzurunda olmaq üçün Onun seçəcəyi yerə
getsin. Rəbbin hüzuruna heç kim əliboş
getməsin. 17 Hər biriniz Allahınız Rəbbin sizə
verdiyi bərəkətə görə bəxşiş götürməlisiniz.

### *Hakimlərlə mə'murların tə'yin olunması*

18 Allahınız Rəbbin sizə verəcəyi şəhərlərdə
hər qəbiləniz üçün hakimlər və mə'murlar
seçin. Qoy onlar xalqa ədalətlə hakimlik
etsinlər. 19 Hökm çıxararkən haqsızlıq etməyin,
heç kimin tərəfini saxlamayın. Rüşvət
almayın, çünki rüşvət müdrik insanın belə,
gözlərini kor edir və məhkəmədə mə'sum bir
insana qarşı səhv qərara yol verir. 20 Salehliyin,
yalnız salehliyin ardınca gedin, onda həyat
taparsınız və Allahınız Rəbbin sizə verəcəyi
torpağı irs olaraq alarsınız. 21 Allahınız Rəbb
üçün quracağınız qurbangahın yanına ilahə
Aşeranın surətində heç bir ağac sütunu
qoymayın. 22 Allahınız Rəbbin ikrah etdiyi daş
sütun qoymayın.

17 1 Hər hansı bir qüsuru və
çatışmazlığı olan öküzü ya da qoyunu
Allahınız Rəbbə qurban etməyin. Belə etmək
Allahınız Rəbb üçün iyrəncdir.

2 Allahınız Rəbbin sizə verəcəyi şəhərlərin
birində aranızdan Onun əhdini pozub gözündə
pis olanı edən hər hansı bir kişi və ya qadın
çıxarsa, 3 əmrlərimin ziddinə gedib başqa
allahlara sitayiş edərsə, bütlərə yaxud günəşə,
aya yaxud səma cisimlərindən hər hansı birinə
sitayiş və səcdə edərsə, 4 bu hadisədən
xəbərdar olsanız, eşitdiklərinizi yaxşı-yaxşı
araşdırın. Əgər bu xəbər doğrudursa və belə
iyrənc halın İsraildə baş verdiyi sübuta
yetərsə, 5 belə pis hərəkət edən kişini və ya
qadını şəhərin darvazasına gətirib daşqalaq
edərək öldürün. 6 Ölümə məhkum olan adam
iki yaxud üç nəfərin şahidliyi ilə
öldürülməlidir. Tək bir nəfərin şahidliyi ilə
öldürülməsin. 7 O adamı əvvəlcə şahidlər,
sonra isə bütün xalq daşqalaq etsin. Beləliklə,
bu pislik aranızdan atılsın.

### *Məhkəmə işləri*

8 Əgər şəhərlərinizdə qatillik, dava və ya
təcavüz barəsində qərar çıxarmaqda həll edə
bilmədiyiniz çətinliklərə rast gəlsəniz,
Allahınız Rəbbin seçəcəyi yerə gedin. 9 O
dövrdə xidmət edən Levili kahinlərin və
hakimlərin yanına gedib onlara müraciət edin.
Qoy onlar araşdırıb məhkəmə qərarını sizə
versinlər. 10 Rəbbin seçəcəyi yerdən sizə
deyilən qərara əməl edin. Sizə nə öyrətsələr,
ona diqqətlə əməl edin. 11 Öyrədilən tə'limata
və söylənilən hökmə görə rəftar edin. Əmr
edilənlərdən nə sağa, nə də sola dönün.
12 Orada Allahınız Rəbbin hüzurunda
vəzifəsini icra edən kahinə yaxud hakimə
qulaq asmamaq iddiasında olan şəxs
öldürülsün və bu pislik İsraildən atılsın.
13 Bütün xalq bu xəbəri eşidib qorxacaq və bir
daha bu iddiaya düşməyəcək.

### *Padşahla əlaqədar qanunlar*

14 Allahınız Rəbbin sizə verəcəyi torpağa
girib, oranı irs olaraq alanda və orada
məskunlaşanda əgər "bütün ətraf ölkələrdəki
kimi bizə hökm edəcək bir padşah tə'yin
edək" desəniz, 15 mütləq Allahınız Rəbbin
seçəcəyi adamı padşah qoyun. Padşah tə'yin
etdiyiniz adam öz soydaşlarınızdan olmalıdır.
İsrailli soydaşlarınızdan olmayan yadelli bir

***16:19*** *– Çıx. 23:6-8; Lev. 19:15*
***16:21*** *– Çıx. 34:13*
***16:22*** *– Lev. 26:1*

***17:3*** *– Çıx. 22:20*
***17:6*** *– Say. 35:30; Qanun. 19:15; Mat. 18:16; 2Kor. 13:1; 1Tim. 5:19; İbr. 10:28*
***17:7*** *– Qanun. 13:5; 1Kor. 5:13*
***17:14*** *– 1Şam. 8:5*

adamı padşah edə bilməzsiniz. [16] Qoy padşah
özü üçün at çoxaltmasın. İlxısını artırmaq
üçün xalqı Misirə – geriyə qaytarmasın, çünki
Rəbb sizə belə demişdi: "Bir də bu yoldan
geri qayıtmayın". [17] Padşah çox arvad almasın,
yoxsa ürəyi haqq yoldan dönər. O özü üçün
çoxlu qızıl-gümüş yığıb onu çoxaltmasın.

[18] Padşah taxta çıxandan sonra Levili
kahinlərin nəzarəti altında bu Qanundan bir
surətini özü üçün kitaba köçürsün. [19] Qoy o,
Qanunun bu surətini yanında saxlayaraq ömrü
boyu hər gün oxusun. Bununla da padşah
Allahınız Rəbdən qorxmağı, bu Qanunun
bütün sözlərinə və bu qaydalara əməl etməyi
öyrənsin. [20] Özünü soydaşlarından üstün
tutmasın, əmrdən nə sağa, nə də sola dönsün.
Onda İsraildə özünün və nəslinin padşahlıq
dövrü uzun olar.

### *Levililərlə kahinlərin payı*

18 [1] Levili kahinlərin, bütün Levi
qəbiləsinin digər İsraillilərlə birgə
payı və irsi olmayacaq. Onlar Rəbbə edilən
təqdimlərlə doyacaqlar və bu onların irsi
olacaq. [2] Levililərin soydaşları arasında irsi
torpaqları olmayacaq və Rəbbin söz verdiyi
kimi onların irsi Rəbb Özüdür.

[3] Xalq arasında öküz və qoyun qurbanı
təqdim edən qol, çənə və içalatı kahinlərə pay
versin. [4] Taxılınızın, təzə şərabınızın, zeytun
yağınızın nübarını və qoyunlarınızdan
qırxdığınız ilk yunu kahinlərə verin.
[5] Allahınız Rəbb onları və övladlarını bütün
qəbilələriniz arasından seçdi ki, daim Rəbbin
adına xidmətdə dayansınlar. [6] Əgər bir Levili
yaşadığı İsrail şəhərlərinin birindən könüllü
surətdə Rəbbin seçəcəyi yerə gedərsə, [7] orada
Allahı Rəbbin qarşısında dayanan Levili
soydaşları kimi Rəbbin naminə xidmət edə
bilsin. [8] O, ata mülkünün satışından əldə etdiyi
vəsaitdən əlavə, onlarla bərabər paydan da
istifadə edə bilər.

### *Başqa millətlərin iyrənc adətləri*

[9] Allahınız Rəbbin sizə verəcəyi torpağa
girdiyiniz zaman o millətlərin iyrənc
adətlərini götürüb təqlid etməyin. [10] Aranızda
oğul və qızını oda qurban verən, falçı,
gələcəyideyən, baxıcı, cadugər, [11] ovsunçu,
cindarlara və ruhçağıranlara müraciət edən
yaxud ölüləriçağıran olmasın. [12] Rəbb belə iş
görənlərə nifrət edir. Elə bu iyrənc işlərə görə
Allahınız Rəbb millətləri sizin qarşınızdan
qovacaq. [13] Allahınız Rəbbin gözü önündə
kamil olun. [14] Çünki torpaqlarını alacağınız
millətlərin hamısı gələcəyideyənlərin və
falçıların nəsihətlərinə qulaq asırlar. Amma
Allahınız Rəbb sizin üçün buna izin vermir.

### *Gələcək peyğəmbər*

[15] Allahınız Rəbb sizin üçün aranızdan – öz
soydaşlarınız içərisindən mənim kimi bir
peyğəmbər yetirəcək. Ona qulaq asın. [16] Çünki
Xorevdə yığıldığınız gün Allahınız Rəbdən
bunu diləmişdiniz: "Qoy bir də Allahımız
Rəbbin səsini eşitməyək və bir daha bu böyük
alovu görməyək, yoxsa ölərik". [17] Onda Rəbb
mənə dedi: "Dedikləri doğrudur. [18] Onlar üçün
soydaşları arasından sənin kimi bir
peyğəmbər yetirəcəyəm və sözlərimi onun
dilindən eşidəcəksiniz. O əmr etdiyim hər şeyi
sizə söyləyəcək. [19] Mənim adımla söylədiyi
sözlərə qulaq asmayan adamı ittiham
edəcəyəm. [20] Lakin hansı bir peyğəmbər ona
əmr etmədiyim sözü Mənim adımdan
danışmağa cür'ət edərsə yaxud başqa
allahların adından danışarsa, o peyğəmbər
öldürülsün".

[21] "Axı bu sözün Rəbdən olub-olmadığını
necə bilək?" deyə düşünə bilərsiniz. [22] Əgər
bir peyğəmbər Rəbbin adından danışanda
dediyi söz həyata keçməzsə yaxud düz
çıxmazsa, bilin ki, onu Rəbb söyləməmişdir.
O peyğəmbərin dediklərinin səlahiyyəti
yoxdur. Ondan qorxmayın.

### *Sığınacaq şəhərlər*

*(Say. 35:6-34; Qanun. 4:41-43; Yeşua 20:1-9)*

19 [1] Allahınız Rəbb torpaqlarını sizə
verəcəyi millətləri yox edəndə və siz
onların mülkünü alıb şəhərlərində və
evlərində yaşayanda [2] Allahınız Rəbbin mülk
olaraq almaq üçün sizə verəcəyi torpağın
mərkəzində özünüz üçün üç şəhər ayırın. [3] Bu
şəhərlərə getmək üçün yollar çəkib Allahınız
Rəbbin irs olaraq sizə verəcəyi ölkəni üç
bölgəyə ayırın. Belə ki qətl edən bu
şəhərlərdən birinə qaçsın.

***17:16*** *– 1Pad. 10:28; 2Saln. 1:16; 9:28*
***17:17*** *– 1Pad. 11:1-8*
***17:17*** *– 1Pad. 10:14-22,27; 2Saln. 1:15; 9:27*
***18:2*** *– Say. 18:20; Qanun. 10:9*
***18:10-11*** *– Çıx. 22:18; Lev. 19:26,31*
***18:13*** *– Mat. 5:48*
***18:15,18*** *– Yəh. 1:21; 7:40; Həv. 3:22; 7:37*
***18:19*** *– Həv. 3:23*

4 Sağ qalmaq üçün oraya qaçan qatil
haqqında – yə’ni qonşusu ilə əvvəlcədən
ədavəti olmadan və bilmədən onu öldürən
adam barədə belə bir qaydanız olsun.
5 Məsələn, odun kəsmək üçün qonşusu ilə
meşəyə gedib ağac doğramaq üçün balta
vuranda baltanın dəmiri sapından çıxıb
qonşusuna dəyərsə və qonşusu ölərsə, ölümə
bais adam bu şəhərlərdən birinə qaçıb canını
qurtarsın. 6 Yoxsa qan qisasını alan qəzəblə
qatilin izinə düşə bilər. Yol uzaq olarsa, çatıb
onu öldürə bilər. Bu adamın öldürdüyü
adamla əvvəllər heç bir ədavəti olmamışdı.
Ona görə də ölüm hökmünə layiq deyil.
7 Bunun üçün "özünüzə üç şəhər seçin" deyə
əmr edirəm.
8 Allahınız Rəbbi sevmək və daim Onun
yolları ilə getmək üçün bu gün sizə
buyurduğum bütün bu əmrlərə diqqətlə əməl
etdiyiniz üçün 9 Allahınız Rəbb atalarınıza and
etdiyi kimi sizin sərhədinizi genişləndirərsə
və atalarınıza verməyi və’d etdiyi bütün
torpaqları sizə verərsə, o zaman özünüz üçün
bu üç şəhərdən əlavə üç şəhər də seçin. 10 Belə
ki Allahınız Rəbbin irs olaraq sizə verəcəyi
torpaqda günahsız qan tökülməsin və həm də
qan tökməkdə təqsirkar olmayasınız.
11 Lakin kiminsə qonşusu ilə ədavəti varsa,
pusquda durub onu izləyərsə, hücum edərək
onu vurub öldürərsə və bu şəhərlərdən birinə
qaçarsa, 12 bu adamın şəhərinin ağsaqqalları
adam göndərib onu oradan götürüb öldürmək
üçün qan qisası alana təslim etsin. 13 Ona rəhm
etməyin. Günahsız qanı İsraildən təmizləyin
ki, güzəranınız xoş olsun.
14 Allahınız Rəbbin mülk olaraq almaq
üçün sizə verəcəyi torpaqda alacağınız
mülkdə qonşunuzun əvvəlki adamlar
tərəfindən qoyulan sərhədini dəyişdirməyin.

### *Şahidlər*

15 Bir adamı işlədə biləcəyi hər hansı bir
günahda yaxud cinayətdə təqsirləndirmək
üçün bir şahid kifayət deyil. Hər iddia iki və
ya üç şahidin sözü ilə təsdiq edilsin.
16 Əgər bir yalançı şahid pis məqsədlə birini
təqsirləndirərsə, 17 aralarında münaqişə olan
iki adam Rəbbin hüzurunda, o dövrdə xidmət
edən kahinlərin və hakimlərin qarşısında

***19:14*** *– Qanun. 27:17*
***19:15*** *– Say. 35:30; Qanun. 17:6; Mat. 18:16; Yəh. 19:31; 2Kor. 13:1; 1Tim. 5:19; İbr. 10:28*

dayansın. 18 Hakimlər yaxşı-yaxşı araşdırsınlar.
Əgər şahid yalançıdırsa, soydaşlarına qarşı
yalandan şahidlik etmişsə, 19 onda soydaşına
etmək istədiyini onun öz başına gətirin və
aranızdan bu pisliyi atın. 20 Qalanları da bunu
eşidib qorxacaq və bir daha bu cür pislik
etməyəcəklər. 21 Belə adama rəhm etməyin,
can əvəzinə can, göz əvəzinə göz, diş əvəzinə
diş, əl əvəzinə əl, ayaq əvəzinə ayaq ödənsin.

### *Döyüş zamanı*

20 1 Düşmənlərinizə qarşı döyüşə
çıxanda atları, döyüş arabalarını və
sizdən böyük bir ordunu görəndə qorxmayın,
çünki sizi Misir torpağından çıxaran Allahınız
Rəbb sizinlədir. 2 Kahin döyüş qabağı
ordunun yanına gəlib müraciət edərək 3 belə
desin: "Ey İsraillilər, qulaq asın! Bu gün
düşmənlərinizlə döyüşə çıxırsınız. Onlardan
qorxub ürkməyin və təlaşa düşərək ürəyinizi
yeməyin, 4 çünki Allahınız Rəbb
düşmənlərinizlə döyüşmək və sizə qələbə
qazandırmaq üçün sizinlə gedir".
5 Zabitlər isə orduya belə desinlər: "Yeni ev
tikib içində oturmayan kim var? Qoy evinə
qayıtsın. Yoxsa döyüşdə ölər, evində başqası
yaşayar. 6 Üzüm bağı salıb məhsulunu
toplamayan varmı? Qoy o da evinə qayıtsın.
Birdən döyüşdə ölər, məhsulunu başqası yığar.
7 Bir qıza nişanlı olub evlənməyən varmı? O
da evinə qayıtsın. Yoxsa döyüşdə ölər,
nişanlısını başqası alar". 8 Zabitlərin orduya
müraciətinin davamı belə olsun: "Kim
qorxusundan ürəyini yeyirsə, evinə qayıtsın.
Öz ürəyi kimi yoldaşlarının da ürəyini
üzməsin". 9 Zabitlər orduya müraciətini
bitirəndən sonra bölmələrə rəhbərlər tə’yin
etsinlər.
10 Hansı şəhərə yürüş etsəniz, əvvəl onun
xalqını sülhə çağırın. 11 Əgər o sizinlə sülh
yolu ilə razılaşıb qarşınızda darvazalarını
açarsa, qoy oranın bütün əhalisi sizə
mükəlləfiyyətçi olub qulluğunuzda dursun.
12 Yox, əgər sizin sülh çağırışınızı rədd edib
döyüşə başlasa, onda şəhəri mühasirəyə alın.
13 Allahınız Rəbb şəhəri sizə təslim edəndə
oranın bütün kişilərini qılıncdan keçirin.
14 Qadınları, uşaqları, heyvanları və şəhərdə
olan bütün malları isə talan edin. Allahınız
Rəbbin sizə verdiyi düşmən malını özünüzə
sərf edə bilərsiniz. 15 Sizə yaxın millətlərə aid

***19:21*** *– Çıx. 21:23-25; Lev. 24:20; Mat. 5:38*

olmayan, sizdən uzaqlarda yerləşən şəhərlərin hamısına qarşı rəftarınız belə olsun!

[16] Ancaq Allahınız Rəbbin irs olaraq sizə verəcəyi bu millətlərin şəhərlərində nəfəsi olan heç bir canlını belə, sağ buraxmamalısınız. [17] Xetliləri, Emorluları, Kən’anlıları, Perizliləri, Xivliləri, Yevusluları Allahınız Rəbbin sizə əmr etdiyi kimi tamamilə yox edin ki, [18] allahlarına iyrənc adətlərlə səcdə edənlərdən bunları öyrənərək Allahınız Rəbbə qarşı günah işlətməyəsiniz.

[19] Hər hansı bir şəhərlə döyüşəndə oranı almaq üçün mühasirəsi uzun çəkərsə, ağacları baltalayıb məhv etməyin. Bu ağacların məhsulundan yeyə bilərsiniz, amma onları qırmayın. Məgər çöldəki ağaclar insandır ki, onları mühasirəyə alasınız? [20] Biləndə ki bir ağac bar vermir, həmin ağacı kəsib yox edə bilərsiniz. Sizə müqavimət göstərən şəhəri alanadək mühasirə əməliyyatında bu ağaclardan istifadə edə bilərsiniz.

### *Namə’lum şəxs tərəfindən öldürülənlər*

21 [1] Allahınız Rəbbin mülk olaraq almaq üçün sizə verəcəyi torpaqda, çöldə yerə sərilmiş və kim tərəfindən öldürüldüyü bilinməyən meyit görsəniz, [2] ağsaqqallarınız və hakimləriniz gedib meyitin olduğu yerlə ətraf şəhərlər arasındakı məsafəni ölçsünlər. [3] Meyitə ən yaxın şəhər hansıdırsa, oranın ağsaqqalları işə qoşulmamış, boyunduruq taxılmayan bir düyə götürsünlər. [4] Düyəni şumlanmamış, əkilməmiş torpaqdakı axar sulu dərəyə gətirsinlər və orada düyənin boynunu qırsınlar. [5] Levili kahinlər də oraya getsin. Çünki Allahınız Rəbb onları Özünə xidmətçi seçib. Qoy onlar Rəbbin adı ilə xeyir-dua versinlər, aranızdakı münaqişə və zorakılıq hallarına baxsınlar. [6] Meyitə ən yaxın şəhərin ağsaqqalları dərədə boynu qırılmış düyənin üzərində əllərini yuyub [7] belə bəyan etsinlər: “Bu qan bizim əllərimizlə tökülməyib. Kimin etdiyini də gözümüzlə görməmişik. [8] Ya Rəbb, qurtardığın xalqı – İsrailliləri kəffarə et. Xalqını nahaq tökülən qana cavabdeh etmə”. Beləliklə, qan tökmək günahı kəffarə olunacaq. [9] Rəbbin gözündə doğru olanı etdiyiniz üçün nahaq qan boynunuzdan götürüləcək.

### *Əsirlərdən arvad almaq*

[10] Düşmənlərinizlə döyüşə çıxanda və Allahınız Rəbb onları sizə təslim edəndə və siz onları əsir götürəndə [11] aralarında gözəl qadın görüb ona vurulsanız, onu arvad olaraq ala bilərsiniz. [12] Qoy o qadın kişinin evinə aparılsın. O, başını qırxdıraraq dırnaqlarını kəssin, [13] əynindəki əsirlik geyimlərini çıxarsın və evinizdə qalıb ata-anası üçün bir ay yas tutsun. Bundan sonra qadını alan kişi onun yanına girib öz arvadı edə bilər. [14] Əgər o sənin sonradan xoşuna gəlməzsə, könlü istədiyi kimi onu azad burax. Qadını pula satma və qul kimi rəftar etmə, çünki onu zəlil etmisən.

### *İlk oğulluq haqqı*

[15] Əgər bir kişinin iki arvadı varsa, birini sevib digərini sevmirsə və hər iki qadın ona oğul doğmuşsa, sevmədiyi qadından doğulan oğul ilk oğludursa, [16] bu kişi əmlakını irs olaraq oğulları arasında böləndə ilk oğulluq haqqını sevdiyi qadının oğluna verə bilməz. [17] Sevmədiyi qadının oğlunu ilk oğul olaraq tanısın və bölünən malın ikiqat payını ona versin, çünki gücünün ilk yadigarıdır. Ona görə də ilk oğulluq haqqı onundur.

### *Sözə baxmayan oğul*

[18] Əgər bir adamın dikbaş, asi, valideynlərinə qulaq asmayan, ata-ana tərbiyəsinə məhəl qoymayan bir oğlu varsa, [19] valideynləri onu götürüb şəhərin darvazasına, şəhərin ağsaqqallarının yanına gətirsinlər. [20] Şəhər ağsaqqallarına belə desinlər: “Bizim oğlumuz dikbaş və asidir. Heç sözümüzə baxmır, qarınqulu və əyyaşdır. [21] Onda şəhərin əhalisi onu daşqalaq edib öldürəcək. Aranızdan bu pisliyi atın. Qoy bütün İsraillilər bu xəbəri eşidib qorxsunlar”.

### *Digər qanunlar*

[22] Əgər bir adam bir günahdan ötrü ölüm cəzasına məhkum olunub ağacdan asılırsa, [23] meyiti gecə ağacda asılı qoymayın, mütləq onu həmin gün basdırın, çünki asılan adam Allahın lə’nətinə düçar olub. Allahınız Rəbbin irs olaraq sizə verəcəyi torpağı murdarlamayın.

22 [1] Soydaşının itmiş öküz və ya qoyununu görsən, özünü

---

***21:22-23*** *– Qal. 3:13-14*
***22:1-4*** *– Çıx. 23:4-5*

görməməzliyə vurma. Mütləq öküzü və ya
qoyunu soydaşına geri qaytarmalısan.
2 Soydaşın səndən uzaqdadırsa ya da heyvanın
kimə aid olduğunu bilmirsənsə, onu öz evinə
apar. Soydaşın onu axtara-axtara sizə
gələnədək qoy bu heyvan evində qalsın. Sonra
onu geri qaytar. 3 Soydaşının eşşəyini,
paltarını yaxud itirdiyi başqa şeyləri tapanda
da bu cür etməlisən. Özünü görməməzliyə
vurma. 4 Görəndə ki soydaşının eşşəyi yaxud
öküzü yolda yıxılıb, özünü görməməzliyə
vurma. Mütləq heyvanı ayağa qaldırmaq üçün
soydaşına kömək et.

5 Qadın kişi paltarı, kişi də qadın paltarını
geyinməsin, çünki belə şeyləri edən hər kəs
Allahınız Rəbbə iyrənc görünür.

6 Əgər təsadüfən yolda, ağacda yaxud
torpaq üzərində bir quş yuvası görsən və ana
quş balalarının ya da yumurtalarının üzərində
oturmuşsa, ana quşu balaları ilə birlikdə
götürmə. 7 Özün üçün balalarını götürə
bilərsən, amma mütləq anasını buraxmalısan.
Belə etsən, güzəranın xoş, ömrün uzun olar.

8 Yeni tikdiyin evin damının kənarına
sürahi çək ki, kimsə damından yıxılıb ölsə,
qanı evinin üstünə düşməsin.

9 Bağında iki növ toxumu qarışdırıb əkmə.
Belə etsən, əkdiyin toxumun da, bağın da
məhsulundan istifadə etmək sənə qadağandır.

10 Kotan sürmək üçün eşşəklə öküzü yanaşı
qoşma.

11 Yunla kətandan toxunmuş qarışıq
parçadan paltar geyinmə.

12 Əbanın dörd tərəfinə qotaz sal.

### *Cinsi təmizliyə aid qanunlar*

13 Əgər bir nəfər arvad alıb yaxınlıq
edəndən sonra onu bəyənməzsə, 14 ona şər
ataraq adını ləkələyib "bu qızı aldım, onunla
yaxınlıq edəndən sonra gördüm ki, bakirə
deyil" deyərsə, 15 onda ata-anası qızın
"üzağlıq mələfəsini" darvazaya – şəhər
ağsaqqallarının yanına gətirsin. 16 Qızın atası
şəhər ağsaqqallarına belə desin: "Bu adama
qızımı arvad olaraq verdim. İndi qızımı
bəyənmir. 17 ‹Gördüm ki, sənin qızın bakirə
deyil› deyərək mənim qızımın adını ləkələyir.
Bu isə qızımın ‹üzağlıq mələfəsidir›". Mələfə
şəhərin ağsaqqallarının qarşısına sərilsin.
18 Şəhərin ağsaqqalları isə o adama cəza
versin. 19 Onu yüz şekel gümüş pul cəzasına
məhkum edib gənc qadının atasına versinlər,
çünki o adam İsraildə bir qızın adını ləkələyib.
Bu qadın həmin adamın arvadı olacaq və
ömrü boyu onu boşaya bilməz.

20 Əgər iddia doğrudursa, gənc qadının
üzağlığı tapılmazsa, 21 onda gənc qadını ata
evinin qapısına çıxarsınlar. Şəhər sakinləri
onu daşqalaq edib öldürsünlər, çünki ata
evində zina etməklə İsraildə namussuzluq
edib. Aranızdan bu pisliyi atın.

22 Kim başqasının arvadı ilə yataqda tutulsa,
o zaman o kişi və qadın – hər ikisi öldürülsün.
İsraildən bu pisliyi atın.

23 Əgər bir qız kiməsə nişanlıdırsa, şəhərdə
kimsə onu tapıb cinsi yaxınlıq etsə, 24 o zaman
onların ikisini də o şəhərin darvazasına
çıxararaq daşqalaq edib öldürün. Şəhərdə
olduğu halda qışqırmadığı üçün qızı,
yaxınının nişanlısını ləyaqətsiz etdiyi üçün
kişini öldürün. İsraildən bu pisliyi atın.

25 Əgər bir kişi nişanlı qıza çöldə rast gəlsə,
onu zorlasa, onunla cinsi yaxınlıq etsə, o
zaman yalnız onunla cinsi yaxınlıq edən kişi
öldürülsün. 26 Gənc qadına heç nə etməyin,
çünki onda ölümə layiq günah yoxdur. Ona
görə ki bir adam qonşusuna necə hücum edib
öldürərsə, bu iş də elədir. 27 Çünki kişi qıza
çöldə rast gəlib. Nişanlı qız nə qədər qışqırsa
da, köməyinə çatan olmayıb.

28 Əgər kimsə nişanlanmamış bakirə bir
qıza rast gəlib onu zorlayarsa və onlar
tapılarsa, 29 o zaman onunla cinsi yaxınlıq
edən adam qızın atasına əlli şekel gümüş
versin və həmin qız onun arvadı olsun, çünki
onu zəlil etmişdir. O, qadını ömrü boyu
boşaya bilməz.

30 Kimsə atasının arvadını almasın və
atasının nikahını ləkələməsin.

### *İcmaya daxil olmayanlar*

23 1 Cinsiyyət üzvü əzilmiş ya da
kəsilmiş şəxs Rəbbin icmasına daxil
ola bilməz.

2 Qeyri-qanuni doğulan şəxs Rəbbin
icmasına daxil ola bilməz. Onun övladları,
hətta onuncu nəslə qədər olanı Rəbbin
icmasına daxil ola bilməz.

---

***22:9-11** – Lev. 19:19*
***22:12** – Say. 15:37-41*
***22:28-29** – Çıx. 22:16-17*
***22:30** – Lev. 18:8; 20:11; Qanun. 27:20; 1Kor. 5:1*

3 Allahın icmasına heç bir Ammonlu və
yaxud Moavlı daxil ola bilməz. Onların heç
bir övladı, hətta onuncu nəslə qədər olanlar da
Rəbbin icmasına əsla daxil ola bilməz, 4 çünki
onlar Misirdən çıxdığınız zaman yolda sizi
çörək və su ilə qarşılamadılar. Sizə lə’nət
oxumaq üçün Aram-Naharayimdəki Petor
şəhərindən Beor oğlu Bilamı muzdla tutdular.
5 Lakin Allahınız Rəbb Bilamı dinləmək
istəmədi. Ona görə də Allahınız Rəbb bu
lə’nəti xeyir-duaya çevirdi, çünki O sizi sevir.
6 Nə qədər ömrünüz varsa, onların xeyri və
rifahı üçün çalışmayın.

7 Edomlulara isə ikrahla yanaşmayın, çünki
onlar sizin qohumlarınızdır. Misirlilərə də
ikrahla yanaşmayın, çünki torpaqlarında qərib
olmusunuz. 8 Onlardan doğulanların üçüncü
nəsli Rəbbin icmasına daxil ola bilər.

### *Ordugahın təmizliyi*

9 Düşmənlərinizlə döyüşmək üçün ordugah
quranda özünüzü hər cür murdarlıqdan
qoruyun. 10 Əgər gecə yatarkən aranızda
toxumu tökülən şəxs olarsa, o, ordugahdan
kənara çıxsın və buraya daxil olmasın.
11 Axşamadək yuyunsun və gün batandan
sonra ordugaha qayıtsın.

12 Ordugahınızdan kənarda ayaqyolu üçün
yer tə’yin edin. 13 Sursatınız arasında yer
qazmaq üçün bel də olsun ki, ayaqyoluna
gedəndə ifrazatın üstünü basdıra biləsiniz.
14 Çünki sizi qurtarmaq və düşmənlərinizi sizə
təslim etmək üçün ordugahınızın içində
Allahınız Rəbb gedir. Ordugahınız müqəddəs
olsun ki, Rəbb natəmiz bir şey görüb sizdən
üz döndərməsin.

### *Müxtəlif qanunlar*

15 Ağasının yanından sizin yanınıza qaçan
qulu ağasına qaytarmayın. 16 Qoy öz seçdiyi
yerdə, bəyəndiyi bir şəhərdə aranızda yaşasın.
Ona əzab verməyin.

17 İsrailli qadın və ya kişi heç bir mə’bəddə
fahişəlik etməsin. 18 Qadının və ya kişinin
fahişəliklə qazandığı qazancı Allahınız
Rəbbin mə’bədinə təqdim etməyin. Hər ikisi
Allahınız Rəbbin gözündə iyrəncdir.

19 Soydaşınıza pulu, ərzağı və yaxud da faiz
gətirən başqa bir şeyi sələmlə borc verməyin.
20 Yadellidənsə faiz ala bilərsiniz, amma
soydaşlarınızdan almayın ki, Allahınız Rəbb
mülk olaraq almaq üçün gedəcəyiniz torpaqda
əl atdığınız hər işə xeyir-dua versin.

21 Allahınız Rəbbə bir əhd təqdimi
edəcəyinizi söyləyəndə gecikdirməyin, çünki
Allahınız Rəbb mütləq bunu sizdən istəyəcək.
Onu yerinə yetirməməyiniz günahdır.
22 Amma əhd etməkdən çəkinirsinizsə, bu,
günah deyil. 23 Ağzınızdan çıxanı yerinə
yetirməyə diqqət edin, çünki Allahınız Rəbbə
əhd edərək ürəkdən təqdim etməlisiniz.

24 Qonşunuzun bağına girəndə doyunca
üzüm yeyə bilərsiniz, amma səbətinizə
yığmayın. 25 Qonşunuzun zəmisinə girəndə
əlinizlə başaq yığa bilərsiniz, amma zəmiyə
oraq vurmayın.

24 1 Kimsə bir qadını alıb, evlilik
zamanı onda ləyaqətsiz bir şey tapdığı
üçün qadını bəyənməzsə, talaq kağızı yazıb
əlinə verərək evindən çıxararsa, 2 evdən
çıxmış qadın sonra başqa kişiyə ərə gedə bilər.
3 O biri kişi də onu bəyənməzsə, ona talaq
kağızı yazıb əlinə verərək evdən çıxararsa və
yaxud onu alan kişi ölərsə, 4 onu evdən
çıxarmış əvvəlki əri onu təkrar özünə arvad
edə bilməz, çünki qadını ləkələmişdir. Bu,
Rəbbin hüzurunda iyrəncdir. Allahınız Rəbbin
sizə irs olaraq verəcəyi ölkədə belə günaha
yol verməyin.

5 Təzə evlənən adam döyüşə getməsin. Ona
heç bir iş tapşırmayın. Qoy bir il evində
sərbəst qalıb aldığı arvadı sevindirsin.

6 Dəyirmanı yaxud üst daşını kimsə girov
götürməsin, çünki o adamın həyatını girov
götürmüş olur.

7 Əgər İsrail övladları arasında kimsə
soydaşını oğurlayıb onunla kölə kimi rəftar
edərsə yaxud onu satarsa, bu oğru
öldürülməlidir. Aranızdan bu pisliyi atın.

8 Cüzam xəstəliyinə tutulanda Levili
kahinlərin əmr etdiyi kimi sizə öyrədəcəkləri
hər şeyə əməl etməyə hədsiz diqqət göstərin.

---

***23:3-5*** *– Neh. 13:1-2*
***23:4*** *– Say. 22:1-6*
***23:5*** *– Say. 23:7-24:9*
***23:6*** *– Ezr. 9:12*
***23:17*** *– Lev. 19:29*
***23:19-20*** *– Çıx. 22:25; Lev. 25:36-37; Qanun. 15:7-11*
***23:21*** *– Say. 30:1-16; Mat. 5:33*
***23:25*** *– Mat. 12:1; Mrk. 2:23; Luk. 6:1*
***24:1*** *– Mat. 5:31; 19:7; Mrk. 10:4*
***24:7*** *– Çıx. 21:16*
***24:8*** *– Lev. 13:1-14:54*

[9] Misirdən çıxan zaman Allahınız Rəbbin
yolda Məryəmə etdiyi hər şeyi xatırlayın.
[10] Qonşunuza bir şey borc verəndə girovu
onun evinə girərək özünüz götürməyin.
[11] Bayırda dayanın, borc verdiyiniz adam qoy
özü girovu bayıra çıxarsın. [12] Əgər o adam
kasıbdırsa, onun girovu sizdə ola-ola
yatmayın. [13] Girov götürdüyünüzün üst
paltarını mütləq gün batanda geri qaytarın ki,
o öz üst paltarında yatıb sizə xeyir-dua etsin
və bu, Allahınız Rəbbin önündə sizin üçün
salehlik sayılsın.
[14] Muzdla işləyəni, kasıb və möhtac bir
İsrailli soydaşınızı yaxud şəhərlərinizdə
yaşayan hər hansı bir qəribi istismar etməyin.
[15] Muzdunu hər gün gün batmazdan əvvəl
verin, çünki kasıbdır, ümidini yalnız ona
bağlayıb. Yoxsa sizdən Rəbbə fəryad edər və
siz günahkar sayılarsınız.
[16] Oğula görə ata, ataya görə oğul
öldürülməsin, hər kəs öz günahına görə
öldürülsün.
[17] Qəribi və yetimi ədalətdən məhrum
etməyin və dul qadının geyimini girov
götürməyin. [18] Misirdə kölə olan zaman
Allahınız Rəbbin sizi oradan necə qurtardığını
xatırlayın. Bunun üçün belə rəftar etməyi sizə
əmr edirəm.
[19] Zəminizdə əkini biçən zaman bir dərz
unutmusunuzsa, onu götürmək üçün geri
qayıtmayın. Qoy o qəribin, yetimin və dul
qadının olsun. Onda Allahınız Rəbb ələ
götürdüyünüz hər işdə sizə bərəkət verəcək.
[20] Ağacları döyüb zeytun yığan zaman
budaqlarda qalanı dənləmək üçün geri
qayıtmayın. Qoy o, qəribin, yetimin və dul
qadının olsun. [21] Bağınızın üzümlərini yığan
zaman tənəklərdə qalanı başaq etmək üçün
geri qayıtmayın. Qoy o, qəribin, yetimin və
dul qadının olsun. [22] Misir torpağında kölə
olduğunuzu xatırlayın. Bunun üçün belə rəftar
etməyi sizə əmr edirəm.

25 [1] İnsanlar arasında münaqişə olarsa,
qoy onlar məhkəməyə getsinlər.
Hakimlər bu işə baxıb haqlı adama bəraət,
haqsıza isə cəza versinlər. [2] Əgər təqsirkar
adam kötəklənməyə layiqdirsə, qoy hakim
onu yerə uzandırıb kötəyi günahının ağırlığına
görə vurdursun. [3] Təqsirkara qırx zərbədən
artıq vurulmasın. Əgər qırxdan çox zərbə
vursanız, soydaşınız göz önündə zəlil ola bilər.
[4] Xırman döyən öküzün ağzını bağlamayın.
[5] Əgər qardaşlar bir yerdə yaşayırlarsa,
onlardan biri ölərsə və ölənin oğlu olmazsa,
dul qadın başqa ailədən olan bir adama ərə
getməsin. Qaynı yanına gəlib onu arvad
olaraq alsın və qayın-qəyyumluq vəzifəsini
yerinə yetirsin. [6] Qadının doğacağı ilk oğul
mərhumun adını yaşatsın. Qoy İsraildə
mərhumun adı batmasın. [7] Kim mərhum
qardaşının dul arvadını almaq istəməzsə, dul
qadın darvazada yerləşən ağsaqqalların
yanına getsin və belə desin: "Qaynım İsraildə
qardaşının adını yaşatmaqdan imtina edir.
Mənim üçün qayın-qəyyumluq vəzifəsini icra
etmək istəmir". [8] Onda şəhər ağsaqqalları
onun qaynını çağırıb danışacaqlar. Əgər o
inad edib yenə də "onu almıram" desə, [9] o
zaman həmin qadın ağsaqqallar qarşısında
gəlib qaynının çarığını çıxararaq üzünə
tüpürsün və "qardaşının nəslini yaşatmayana
belə edilir" desin. [10] İsraildə onun nəsli "çarığı
çıxarılanın nəsli" adlanacaq.
[11] Əgər dalaşan iki kişinin arvadlarından
hansısa ərini döyən kişinin əlindən qurtarmaq
üçün gəlib əl uzatsa və o biri kişinin cinsiyyət
üzvündən yapışsa, [12] belə qadına rəhm
etmədən onun əlini kəsin.
[13] Aldatmaq üçün torbanızda biri ağır,
digəri yüngül çəkən iki cür çəki daşı olmasın.
[14] Evinizdə biri böyük, digəri kiçik ölçən iki
cür ölçü əşyası olmasın. [15] Çəki daşınız,
ölçünüz düzgün və dəqiq olsun ki, Allahınız
Rəbbin sizə verəcəyi torpaqda uzun ömür
sürəsiniz. [16] Çünki Allahınız Rəbb belə pis
işlər görən və haqsızlıq edənlərə nifrət edir.
[17] Misirdən çıxanda Amaleqlilərin yolda
sizə nə etdiyini yada salın. [18] Siz yorulub
əldən düşərkən onlar yolda sizə hücum etdilər,
arxada qalan bütün gücsüzləri qırdılar,
Allahdan qorxmadılar. [19] Allahınız Rəbb mülk

***24:9*** *– Say. 12:10*
***24:10-13*** *– Çıx. 22:26-27*
***24:14-15*** *– Lev. 19:13; Yaq. 5:4*
***24:16*** *– 2Pad. 14:6; 2Saln. 25:4; Yez. 18:20*
***24:17-18*** *– Çıx. 23:9; Lev. 19:33-34; Qanun. 27:19*
***24:19-21*** *– Lev. 19:9-10; 23:22*
***25:3*** *– 2Kor. 11:24*
***25:4*** *– 1Kor. 9:9-10; 1Tim. 5:18*
***25:5-6*** *– Mat. 22:23-24; Mrk. 12:18-19; Luk. 20:27-28*
***25:7-10*** *– Rut 4:7-8*
***25:13-16*** *– Lev. 19:35-36*
***25:17-19*** *– Çıx. 17:8-14; 1Şam. 15:2-9*

etmək üçün irs olaraq sizə verəcəyi torpaqda
və ətrafınızda olan düşmənlərin hamısından
qurtarıb rahatlıq verəndə göylərin altından
Amaleqlilərin xatirəsini silin və bunu
unutmayın.

### *İlk məhsul və onda bir hissə*

26 1 Allahınız Rəbbin irs olaraq sizə
verəcəyi torpağa girib orada
məskunlaşanda 2 Allahınız Rəbbin sizə
verəcəyi ölkənin torpaqlarından topladığınız
bütün məhsulların nübarını götürüb bir səbətə
yığın. Sonra Allahınız Rəbbin Öz isminə
məskən seçəcəyi yerə gedin. 3 O dövrdə
xidmət edən kahinin yanına gedib deyin:
"Allahın Rəbbə bu gün bəyan edirəm ki,
Rəbbin atalarımıza və'd etdiyi ölkəyə çatdım".
4 Kahin əlinizdən səbəti alıb onu Allahınız
Rəbbin qurbangahı önündə yerə qoysun.
5 Allahınız Rəbbin önündə bunu bəyan edin:
"Atam köçəri Aramlı idi. Azsaylı olaraq
Misirə enib orada məskunlaşdı və ondan
böyük, güclü, çoxsaylı millət törədi.
6 Misirlilər bizimlə pis rəftar etdilər. Bizi zəlil
edib üzərimizə ağır işlər yüklədilər. 7 Onda
atalarımızın Allahı Rəbbə fəryad qopardıq və
Rəbb səsimizi eşitdi. Əzabımızı, əziyyətimizi
və zəlalətimizi gördü. 8 Rəbb qüvvətli əli,
uzanan qolu, böyük zəhmi, əlamət və
mö'cüzələri ilə bizi Misirdən çıxartdı. 9 O bizi
bu yerə gətirərək süd və bal axan bu torpağı
bizə verdi. 10 İndi, ya Rəbb, mənə verdiyin
torpağın məhsulunun nübarını Sənə
gətirmişəm". Sonra səbəti Allahınız Rəbbin
önünə qoyub Onun qarşısında səcdə edin.
11 Siz, Levililər, aranızda yaşayan qəriblər
Allahınız Rəbbin sizə və ailənizə verdiyi
bütün yaxşı şeylər üçün sevinəcəksiniz.

12 Üçüncü il onda bir hissəni təqdimetmə
ilidir. Bütün məhsulunuzun onda birini bir
yana yığın. Ayırma işini qurtarandan sonra
onda bir hissəni Levililərə, qəriblərə,
yetimlərə və dul qadınlara verin ki,
şəhərlərinizdə onlar da yeyib-doysunlar.
13 Sonra Allahınız Rəbbə deyin: "Mənə əmr
etdiyin kimi Rəbb yolunda ayırdıqlarımı
evdən çıxarıb Levililərə, qəriblərə, yetimlərə
və dul qadınlara verdim. Əmrlərindən
çıxmadım, heç birini yaddan çıxarmadım.
14 Bu paydan yas tutarkən yemədim, onu
evdən çıxaranda murdar deyildim və onu
ölülərə təqdim etmədim. Allahım Rəbbin
sözünə qulaq asdım. Mənə əmr etdiklərinin
hamısını yerinə yetirdim. 15 Ya Rəbb, indi
müqəddəs məskənindən – göylərdən aşağıya
bax. Xalqın İsrailə, atalarımıza etdiyin anda
görə bizə verdiyin torpağa – süd və bal axan
torpağa xeyir-dua ver".

### *Allahın Öz xalqı*

16 Bu gün Allahınız Rəbb bu qaydalara,
hökmlərə əməl etməyi sizə buyurur. Onlara
bütün qəlbinizlə, bütün varlığınızla əməl
etmək üçün diqqətli olun. 17 Bu gün Rəbbin
Allahınız olduğunu, Onun yolları ilə
gedəcəyinizi, qanunlarına, əmrlərinə,
hökmlərinə riayət edəcəyinizi, Onun sözünə
qulaq asacağınızı bəyan etdiniz. 18 Bu gün
Rəbb sizə verdiyi sözə görə bəyan etdi ki,
Ona məxsus xalq olasınız. Ona görə də bütün
əmrlərinə riayət etməlisiniz. 19 O zaman dediyi
kimi Allahınız Rəbb, yaratdığı bütün
millətlərdən tə'rifdə, şöhrətdə və hörmətdə
sizi üstün edəcək ki, Allahınız Rəbb üçün
təqdis edilmiş xalq olasınız».

### *Eval dağındakı qurbangah*

27 1 Musa ilə İsrailin ağsaqqalları xalqa
belə dedilər: «Bu gün sizə
buyurduğum bütün əmrlərə riayət edin.
2 İordan çayını keçib Allahınız Rəbbin sizə
verəcəyi torpağa gedəndə böyük daşları dik
qoyub əhəngləyin. 3 Atalarınızın Allahı
Rəbbin və'd etdiyi kimi Onun sizə verəcəyi
ölkəyə – süd və bal axan torpağa girəndə bu
qanunun bütün sözlərini bu daşlara yazın. 4 Bu
daşları bu gün sizə əmr etdiyim kimi İordan
çayını keçəndən sonra Eval dağında dikəldib
əhəngləyin. 5 Orada Allahınız Rəbbə dəmir
alət vurulmamış daşlardan bir qurbangah
düzəldin. 6 Allahınız Rəbbin qurbangahını
yonulmamış daşlardan düzəldib üzərində
Allahınız Rəbbə yandırma qurbanları təqdim
edin. 7 Ünsiyyət qurbanlarını orada kəsib
yeyərək Allahınız Rəbbin önündə sevinin.
8 Bu qanunun bütün sözlərini bu daşlara aydın,
oxunabilən tərzdə yazın».

9 Sonra Musa ilə Levili kahinlər bütün
İsraillilərə belə müraciət etdilər: «Ey

---

***26:2*** *– Çıx. 23:19*
***26:12*** *– Qanun. 14:28-29*
***26:18*** *– Çıx. 19:5; Qanun. 4:20; 7:6; 14:2; Tit. 2:14; 1Pet. 2:9*
***27:2-8*** *– Yeşua 8:30-32*
***27:5-6*** *– Çıx. 20:25*

İsraillilər, sakitcə qulaq asın! Bu gündən siz
Allahın xalqı oldunuz. 10 Bu gün sizə
buyurduğum kimi Allahınız Rəbbin sözlərinə
qulaq asıb Onun əmrlərinə, qanunlarına və
qaydalarına əməl edin».

### *Eval dağından lə’nətlər*

11 O gün Musa xalqa belə dedi: 12 «İordan
çayını keçəndə xalqa xeyir-dua vermək üçün
bu qəbilələr Gerizim dağında dursun: Şimeon,
Levi, Yəhuda, İssakar, Yusif, Binyamin.
13 Lə’nətləmək üçün bu qəbilələr Eval dağında
dursun: Ruven, Qad, Aşer, Zevulun, Dan,
Naftali. 14 Levililər bütün İsrail xalqına ucadan
belə müraciət etsin:

15 “Qoy Rəbbin iyrəndiyi, bir sənətkarın
əl işi olan oyma və ya tökmə büt
yaradana, gizlicə belə şeylər
saxlayana lə’nət olsun!” Bütün xalq
cavab versin: “Amin!”

16 “Qoy ata-anası ilə hörmətsiz rəftar
edənə lə’nət olsun!” Bütün xalq
desin: “Amin!”

17 “Qoy qonşusunun sərhədini
dəyişdirənə lə’nət olsun!” Bütün
xalq desin: “Amin!”

18 “Qoy kor olanı yoldan azdırana lə’nət
olsun!” Bütün xalq desin: “Amin!”

19 “Qoy qəribə, yetimə, dul qadına
haqsızlıq edənə lə’nət olsun!” Bütün
xalq desin: “Amin!”

20 “Qoy atasının arvadı ilə yatana lə’nət
olsun! Çünki o, atasının nikahını
ləkələmişdir”. Bütün xalq desin:
“Amin!”

21 “Qoy hər hansı bir heyvanla cinsi
əlaqəyə girənə lə’nət olsun!” Bütün
xalq desin: “Amin!”

22 “Qoy anadan yaxud atadan bir olan
bacısı ilə yatana lə’nət olsun!” Bütün
xalq desin: “Amin!”

23 “Qoy qayınanası ilə yatana lə’nət
olsun!” Bütün xalq desin: “Amin!”

24 “Qoy gizlicə qonşusunu öldürənə
lə’nət olsun!” Bütün xalq desin:
“Amin!”

25 “Qoy günahsız qan tökmək üçün
rüşvət alana lə’nət olsun!” Bütün
xalq desin: “Amin!”

26 “Qoy bu qanunun sözlərinə riayət
etməyənə, onu təsdiq etməyənə
lə’nət olsun!” Bütün xalq desin:
“Amin!”

### *Xeyir-dualar*

*(Lev. 26:3-13; Qanun. 7:12-24)*

28 1 Əgər Allahınız Rəbbin sözlərinə
yaxşı-yaxşı qulaq asıb bu gün sizə
buyurduğum bütün əmrlərinə riayət etsəniz,
Allahınız Rəbb sizi yer üzündəki bütün
millətlərdən üstün edəcək. 2 Allahınız Rəbbin
sözünü dinləsəniz, bütün bu bərəkətlər sizə
gələcək və üzərinizdə qalacaq.

3 Şəhərdə və çöldə xeyir-dualı olacaqsınız.

4 Doğulan övladlarınız, torpağınızın
məhsulları, heyvanlarınızın, mal-qara və
qoyun-keçilərinizin balaları artımlı olacaq.

5 Səbət və xəmir təknələriniz bərəkətli
olacaq.

6 Hər girişiniz, hər çıxışınız xeyir-dualı
olacaq.

7 Rəbb sizə hücum edən düşmənlərinizi
önünüzdə məğlub edəcək. Onlar sizə bir
yoldan hücum edəndə önünüzdən yeddi yolla
qaçacaq.

8 Rəbb anbarlarınıza, əl atdığınız hər işə
“Bərəkətli olsun!” deyə əmr verəcək və
Allahınız Rəbb sizə verəcəyi torpağa bərəkət
yağdıracaq.

9 Allahınız Rəbbin əmrlərinə riayət etsəniz,
Onun yolları ilə getsəniz, Rəbb və’d etdiyi
kimi sizi Özü üçün müqəddəs bir xalq kimi
qoruyacaq. 10 Yer üzərindəki bütün xalqlar
Rəbbə aid olduğunuzu görüb sizdən qorxacaq.
11 Rəbb atalarınıza və’d etdiyi torpaqda sizi
bolluq içərisində yaşadacaq. Doğulan
övladlarınızın nəslini artırıb-çoxaldacaq,
heyvanlarınızın balalarını, torpağınızın
məhsulunu artımlı edəcək. 12 Rəbb torpağınıza
yağışı vaxtlı-vaxtında yağdıracaq və bütün
zəhmətinizə bərəkət vermək üçün göylərdən

---

***27:12*** *– Qanun. 11:29; Yeşua 8:33-35*
***27:15*** *– Çıx. 20:4; 34:17; Lev. 19:4; 26:1; Qanun. 4:15-18; 5:8*
***27:16*** *– Çıx. 20:12; Qanun. 5:16*
***27:17*** *– Qanun. 19:14*
***27:18*** *– Lev. 19:14*
***27:19*** *– Çıx. 22:21; 23:9; Lev. 19:33-34; Qanun. 24:17-18*
***27:20*** *– Lev. 18:8; 20:11; Qanun. 22:30; 1Kor. 5:1*
***27:21*** *– Çıx. 22:19; Lev. 18:23; 20:15*
***27:22*** *– Lev. 18:9; 20:17*
***27:23*** *– Lev. 18:17; 20:14*
***27:26*** *– Qal. 3:10*
***28:1-14*** *– Qanun. 11:13-17*

zəngin xəzinəsini açacaq. Siz bir çox
millətlərə borc verəcək, lakin heç kimdən
borc almayacaqsınız. 13 Rəbb sizi quyruq deyil,
baş edəcək. Əgər bu gün sizə buyurduğum
Allahınız Rəbbin əmrlərinə qulaq assanız,
onlara dəqiq əməl etsəniz, aşağıda deyil, hər
zaman yuxarıda olacaqsınız. 14 Bu gün sizə
buyurduğum əmrlərdən kənara çıxmayın,
başqa allahların ardınca getməyin, onlara
sitayiş etməyin.

### *Lə'nətlər*

*(Lev. 26:14-46)*

15 Amma Allahınız Rəbbin sözünə qulaq
asmasanız, bu gün sizə buyurduğum əmrlərin,
qaydaların hamısına dəqiq əməl etməsəniz, bu
lə'nətlər gəlib üzərinizə töküləcək.

16 Şəhərdə və çöldə lə'nət qazanacaqsınız.

17 Səbət və xəmir təknələriniz lə'nətli
olacaq.

18 Doğulan övladlarınız, torpaqlarınızın
məhsulları, mal-qara və qoyun-keçilərinizin
balaları lə'nətə düçar olacaq.

19 Hər girişiniz, hər çıxışınız lə'nətli olacaq.

20 Rəbb əl atdığınız hər işdə üzərinizə lə'nət
göndərəcək, sizi vahiməyə salıb çaşdıracaq.
Nəhayət, Rəbdən üz döndərib pislik etdiyinizə
görə tezliklə sizə ziyan vurub həlak edəcək.
21 Rəbb mülk olaraq almaq üçün gedəcəyiniz
torpaqdan sizi yox edənədək vəbaya düçar
edəcək. 22 O sizi vərəm, qızdırma, iltihab,
insanı qovuran istilik, quraqlıq, səmum küləyi
və kiflə cəzalandıracaq. Siz yox oluncaya
qədər bunlar sizdən əl çəkməyəcək. 23 Başınız
üzərində olan göylər tunc, ayağınız altındakı
yer isə dəmir kimi olacaq. 24 Rəbb ölkənizə
yağış əvəzinə toz-torpaq yağdıracaq. Siz
həlak oluncaya qədər göydən üzərinizə bunlar
yağacaq.

25 Rəbb sizi düşmənlərinizin önündə
məğlub edəcək, onlara bir yoldan hücum
edəndə önlərindən yeddi yolla qaçacaqsınız.
Dünyanın bütün ölkələrinə dəhşətli ibrət
olacaqsınız. 26 Cəsədləriniz göydəki quşlara,
yerdəki heyvanlara yem olacaq, onları
ürküdüb qovan olmayacaq. 27 Rəbb sizi
sağalmaz Misir çibanları, şişlər, xoralar,
qoturlarla cəzalandıracaq. 28 O sizi
cəzalandıraraq dəli və kor edəcək, ürəyinizi
qubarladacaq. 29 Günorta vaxtı kor adam
qaranlıqda əl toxundura-toxundura gəzdiyi
kimi gəzəcəksiniz. Hər işiniz uğursuz olacaq,
daim iztirab çəkəcək və talan olacaqsınız. Sizi
qurtaran olmayacaq.

30 Nişanlandığınız qızla başqası yatacaq.
Tikdiyiniz evdə yaşamayacaqsınız. Saldığınız
bağın məhsulunu dərməyəcəksiniz.
31 Öküzünüz gözünüz önündə kəsiləcək,
ətindən yeməyəcəksiniz. Eşşəkləriniz sizdən
zorla alınacaq və geri qaytarılmayacaq.
Sürüləriniz düşmənlərinizə veriləcək və sizi
qurtaran olmayacaq. 32 Oğullarınız və
qızlarınız gözünüz önündə başqa bir xalqa
təslim ediləcək və onların həsrətindən
günbəgün gözlərinizin nuru sönəcək.
Əlinizdən isə heç nə gəlməyəcək.
33 Torpağınızın və bütün zəhmətinizin
məhsulunu tanımadığınız bir xalq yeyəcək,
siz isə daima iztirab çəkəcək və əziləcəksiniz.
34 Gözlərinizlə gördükləriniz ağlınızı
başınızdan çıxaracaq. 35 Rəbb dizlərinizə,
baldırlarınıza təpədən dırnağa qədər sağalmaz
çibanlar çıxararaq sizi cəzalandıracaq.

36 Rəbb sizi, öz üzərinizə tə'yin etdiyiniz
padşahı sizin də, atalarınızın da tanımadığı bir
millətə əsir apartdıracaq. Orada ağacdan,
daşdan düzəldilmiş yad allahlara sitayiş
edəcəksiniz. 37 Rəbbin sizi əsir etdiyi xalqlar
arasında heyrət, məsəl və kinayə hədəfinə
çevriləcəksiniz.

38 Zəmiyə çox toxum səpib, az yığacaqsınız,
çünki onu çəyirtkə yeyib qurtaracaq. 39 Üzüm
bağları salacaq, becərəcəksiniz, lakin
üzümündən dərməyəcək, şərabından
içməyəcəksiniz, çünki onlara qurd düşəcək.
40 Torpağınızın hər tərəfində zeytun ağacları
bitsə də, onlardan yağ çəkə bilməyəcəksiniz,
çünki zeytun ağaclarınız öz meyvəsini
tökəcək. 41 Oğullarınız, qızlarınız olacaq, lakin
yanınızda qalmayacaq, çünki əsir düşəcəklər.
42 Bütün ağaclarınızın və əkin sahələrinizin
bəhərinə çəyirtkələr daraşacaq.

43 Aranızda yaşayan yadellilər sizdən
olduqca üstün olacaq, siz aşağı endikcə
enəcəksiniz. 44 Sizə onlar borc verəcək, siz
onlara borc verə bilməyəcəksiniz, onlar baş,
siz isə quyruq olacaqsınız.

45 Bu lə'nətlərin hamısı sizin üzərinizə
töküləcək. Sizi həlak olanadək qovub
yaxalayacaqlar, çünki Allahınız Rəbbin
sözünə qulaq asmadınız, sizə buyurduğu
əmrlərə və qaydalara riayət etmədiniz.

---

***28:26*** *– Yer. 7:33*

46 Bunlar sizə və övladlarınıza əbədi bir
əlamət, bir mö'cüzə olacaq. 47 Madam ki
bolluq vaxtında Allahınız Rəbbə sevinclə və
xoşluqla itaət etmədiniz, 48 Rəbbin sizə qarşı
göndərdiyi düşmənlərə ac-susuz, çılpaq və hər
cür ehtiyac içərisində qulluq edəcəksiniz.
Rəbb sizi həlak edənə qədər boynunuza dəmir
boyunduruq salacaq.

49 Rəbb uzaqdan, dünyanın ucqarlarından
bir milləti – dilini başa düşmədiyiniz bir
milləti qartal kimi üzərinizə şığıdacaq. 50 Bu
elə sərt sifətli bir millətdir ki, nə qocaların
şəxsiyyətinə hörməti var, nə də uşaqlara
rəhmi gəlir. 51 Bu millət sizi həlak edincəyə
qədər heyvanlarınızın balalarını, torpağınızın
məhsulunu yeyib qurtaracaq, sizin üçün nə
taxıl, nə təzə şərab, nə zeytun yağı, nə mal-
qaranızın, nə də qoyun-keçilərinizin balalarını
qoymayacaq. 52 Bütün şəhərlərinizi
mühasirəyə alıb ölkənizdəki güvəndiyiniz
möhkəm və hündür divarlarınızı tamamilə
yerlə yeksan edəcəklər. Allahınız Rəbbin sizə
verəcəyi ölkənin bütün şəhərlərini mühasirəyə
alacaqlar.

53 Mühasirəyə düşəndə düşmənlərinizin sizə
verəcəyi aclıqdan doğulan övladlarınızın –
Allahın Rəbbin sizə verdiyi oğul-qızlarınızın
ətini yeyəcəksiniz. 54 Aranızda ən ürəyinazik
və həssas adam belə, öz qardaşına, sevdiyi
arvadına, sağ qalan övladlarına rəhm
etməyəcək. 55 Yediyi uşaqların ətindən onların
heç birinə verməyəcək, çünki mühasirə
olunanda düşmənlərinizin yaratdığı qıtlığa
görə şəhərlərinizdə yeməyə heç nə
qalmayacaq. 56 Aranızda ən ürəyinazik, həssas
qadın – zərifliyindən və incəliyindən ayağını
yerə basmaq istəməyən qadın belə, sevdiyi
ərinə, öz oğluna, eləcə də qızına rəhm
etməyəcək. 57 Bətnindən çıxan cifti və
doğduğu uşaqları verməyib gizli yeyəcək,
çünki bütün şəhərləriniz mühasirəyə düşəndə
aclıq olacaq.

58 Əgər bu kitaba yazılmış bu qanunun
bütün sözlərinə diqqətlə əməl etməsəniz,
Allahınız Rəbbin əzəmətli və zəhmli adından
qorxmasanız, 59 Rəbb sizi və nəslinizi dəhşətli
bəlalara, böyük və sonsuz müsibətlərə,
sağalmaz, ağır xəstəliklərə düçar edəcək.
60 Qorxduğunuz bütün Misir xəstəliklərini
yenə başınıza gətirəcək, bu xəstəliklərə
tutulacaqsınız. 61 Rəbbin bu Qanun kitabında
yazılmamış hər cür xəstəlik və bəlanı sizi yox
edənədək başınıza gətirəcək. 62 Göydəki
ulduzlar qədər çoxalmaq əvəzinə sayca çox az
qalacaqsınız, çünki Allahınız Rəbbin sözünə
qulaq asmadınız. 63 Sizə yaxşılıq etmək və
artırmaqdan Rəbb necə razı qalırdısa, sizi
həlak etdiyi və yox etdiyi üçün də elə razı
qalacaq. Mülk olaraq almaq üçün gedəcəyiniz
ölkədən qoparılacaqsınız.

64 Rəbb sizi dünyanın bu başından o biri
başınadək bütün xalqların arasına pərən-pərən
salacaq. Orada sizin də, atalarınızın da
tanımadığı, ağacdan və ya daşdan düzəldilmiş
yad allahlara sitayiş edəcəksiniz. 65 Bu
millətlər arasında nə sülhünüz, nə də
rahatlığınız olacaq. Rəbb sizə orada
ürəkqopması, ümidsizlik, gözləməkdən
yorulan gözlər verəcək. 66 Daim canınızın
qayğısını çəkəcək, gecə-gündüz vahimə
içərisində yaşayacaqsınız. Həyatınızın asayişi
olmayacaq. 67 Ürəyinizə dolan vahimədən və
gözünüzlə gördüyünüz hadisələr üzündən
səhər olanda “kaş axşam olaydı”, axşam
olanda “kaş səhər olaydı” deyəcəksiniz.
68 Mən sizə demişdim ki, gəldiyiniz yolla geri
dönməyəcəksiniz, amma Rəbb sizi gəmilərlə
Misirə geri qaytaracaq. Orada qul və qaravaş
kimi düşmən bazarında satılacaqsınız, amma
sizi pulla alan olmayacaq».

### *Əhdin yeniləşməsi*

29 1 Rəbb İsrail övladları ilə Xorev
dağında əhd etmişdir. Moavda isə
Musaya əmr etdi ki, yenidən əhd kəssin.
Əhdin şərtləri bunlardır: 2 Musa bütün
İsraillilləri bir yerə yığıb belə dedi: «Rəbbin
Misirdə gözləriniz önündə fir'ona, ə'yanlarına
və ölkəsinə etdiyi hər şeyi gördünüz. 3 Böyük
sınaqları, bu böyük əlamətləri və mö'cüzələri
öz gözünüzlə gördünüz. 4 Lakin Rəbb bu
günədək sizə anlamaq üçün ağıl, görmək üçün
göz, eşitmək üçün qulaq vermədi. 5 Rəbb deyir:
“Sizi qırx il səhrada gəzdirdim. Əyninizdəki
paltar, ayağınızdakı çarıq yırtılıb-dağılmadı.
6 Çörək yemədiniz, şərab ya da məstedici içki
içmədiniz. Bunları ona görə etmişəm ki,
Mənim Allahınız Rəbb olduğumu biləsiniz”.

7 Buraya çatanda Xeşbon padşahı Sixon ilə
Başan padşahı Oq bizimlə döyüşə başladılar.

---

***28:56-57*** *– 2Pad. 6:28-29; Mərs. 4:10*

***29:7*** *– Say. 21:21-35*

Amma onları məğlub etdik. 8 Torpaqlarını ələ
keçirib irs olaraq Ruvenlilərə, Qadlılara,
Menaşşe qəbiləsinin yarısına verdik. 9 Ələ
götürdüyünüz hər işdə uğur qazanmaq üçün
bu əhdin hər sözünə diqqətlə əməl edin.

10 Bu gün siz hamınız – qəbilə başçılarınız,
ağsaqqallarınız, mə'murlarınız, İsraillilərin
hamısı, 11 uşaqlarınız, arvadlarınız, aranızda
yaşayıb odununuzu doğrayan, suyunuzu
daşıyan yadellilər Allahınız Rəbbin qarşısında
dayanmısınız ki, 12 bu gün Allahınız Rəbbin
and edərək sizinlə bağladığı bu əhdi həyata
keçirəsiniz. 13 Qoy bu gün O sizi Öz xalqı
kimi təsdiq etsin, sizə söz verdiyi kimi
atalarınız İbrahimə, İshaqa, Yaquba etdiyi
anda görə sizin Allahınız olsun. 14 Mən bu
əhdi və andı yalnız sizinlə, 15 Allahımız
Rəbbin hüzurunda bizimlə bərabər duranlarla
deyil, bu gün yanımızda olmayanlarla da
edirəm.

16 Misirdə necə yaşadığınızı, o biri
millətlərin içərisindən keçərək buraya necə
gəldiyinizi özünüz də bilirsiniz. 17 Onların
arasında iyrənc şeyləri – ağacdan, daşdan,
qızıldan, gümüşdən düzəldilən iyrənc bütləri
gördünüz. 18 Ehtiyatlı olun, bu gün aranızda
bu millətlərin allahlarına sitayiş etmək üçün
Allahınız Rəbdən dönən nə kişi, nə qadın, nə
nəsil, nə də qəbilə olsun. Aranızda belə acı
pöhrəli, zəhərli kök olmasın. 19 Bu andın
sözlərini eşidən zaman kimsə öz-özünə
gözaydınlığı verib belə bir fikrə düşməsin:
"Onsuz da salamat qalacağam, qoy kefim
istəyən kimi yaşayım". Bu fikir həm münbit
torpağa, həm də quru torpağa bəla gətirər.
20 Belə adamı Rəbb bağışlamaq istəməz. O
adama qarşı qısqanc Rəbbin qəzəbi
alovlanacaq. Bu kitabda yazılan bütün
lə'nətlər başına töküləcək və Rəbb onun adını
göyün altından siləcək. 21 Rəbb bu Qanun
kitabında yazılan əhdin içərisində yer tutan
lə'nətlərin hamısına görə fəlakətə uğratmaq
üçün onu İsrailin bütün qəbilələrinin
içərisindən çıxaracaq.

22 Gələcək nəsil, sizdən sonra gələn
övladlarınız və uzaq diyardan gələn yadellilər
bu ölkənin bəlalarını, Rəbbin oraya
göndərdiyi xəstəlikləri görəcək. 23 Bütün
torpaq yanacaq, kükürd və duzla örtüləcək,
toxum əkilməyəcək, cücərti görünməyəcək, ot
bitməyəcək. Ölkə Rəbbin qızğın qəzəbi ilə
yerlə yeksan etdiyi Sodom, Homorra, Adma
və Sevoyim kimi viran olacaq. 24 Bütün
millətlər "Rəbb bu ölkəyə niyə belə etdi? Bu
böyük qəzəb niyə alovlandı?" deyə
soruşacaqlar. 25 O zaman deyəcəklər: "Çünki
onları Misir diyarından çıxararkən atalarının
Allahı Rəbbin onlarla bağladığı əhdi atdılar.
26 Gedib tanımadıqları allahlara, Rəbbin
onlara bəxş etmədiyi yad allahlara sitayiş və
səcdə etdilər. 27 Ona görə Rəbbin qəzəbi bu
ölkəyə qarşı alovlandı, oranı bu kitabda
yazılan bütün lə'nətlərə düçar etdi. 28 Rəbb
qəzəb, hirs və böyük hiddətlə onları
ölkələrindən qopardı. Bu gün olduğu kimi
onları başqa bir torpağa atdı".

29 Allahımız Rəbbin sirləri var, lakin bə'zi
şeyləri bizə və övladlarımıza əbədilik aşkar
etdi ki, bu qanunun bütün sözlərinə əməl edək.

### *Şəfa və bərəkət*

30 1 Bütün bu hadisələr – qarşınıza
qoyduğum bərəkət və lə'nət başınıza
gələndə Allahınız Rəbbin sizi pərən-pərən
saldığı millətlər arasında bunları
xatırlayacaqsınız. 2 Siz və övladlarınız
Allahınız Rəbbə tərəf dönüb bu gün sizə əmr
etdiyim hər işdə Onun sözünü bütün
qəlbinizlə və bütün varlığınızla qulağınızda
saxlasanız, 3 Allahınız Rəbb sizə rəhm edib
əsirlikdən geri qaytaracaq, sizi yenidən pərən-
pərən saldığı bütün xalqların arasından
toplayacaq. 4 Pərən-pərən olub göyün
altındakı ən ucqar ölkəyə düşsəniz belə,
Allahınız Rəbb sizi oradan yığıb geri
qaytaracaq. 5 Sizi atalarınıza irs olaraq verdiyi
torpağa qovuşduracaq. Oranı yenə də irs
olaraq alacaqsınız, Allahınız Rəbb sizə xoş
güzəran verəcək və sizi atalarınızdan da artıq
çoxaldacaq.

6 Allahınız Rəbb sizin ürəyinizi və
övladlarınızın ürəklərini sünnət edəcək ki,
Allahınız Rəbbi bütün qəlbinizlə, bütün
varlığınızla sevəsiniz və yaşayasınız.
7 Allahınız Rəbb bütün bu lə'nətləri isə sizə
nifrət və zülm edən düşmənlərinizin üzərinizə
tökəcək. 8 Siz yenə Rəbbin sözünə qulaq
asacaq və bu gün sizə buyurduğum bütün

***29:8*** *– Say. 32:33*
***29:18*** *– İbr. 12:15*
***29:23*** *– Yar. 19:24-25*
***29:24-26*** *– Yer. 22:8-9*
***30:4*** *– Neh. 1:9*

əmrlərini yerinə yetirəcəksiniz. 9 Onda
Allahınız Rəbb əlinizdə olan hər işinizi uğurlu
edəcək, sizə çoxlu övlad, heyvanlarınıza
çoxlu bala, torpaqlarınıza bol məhsul verəcək.
Rəbb atalarınıza yaxşılıq etməkdən necə razı
qalırdısa, sizə də yaxşılıq etməkdən elə razı
qalacaq. 10 Bir şərtlə: Allahınız Rəbbin sözünü
qulağınızda saxlayın. Onun bu Qanun
kitabında yazılan əmrlərinə və qaydalarına
əməl edin, bütün qəlbinizlə, bütün varlığınızla
Allahınız Rəbbə tərəf dönün.

11 Bu gün sizə verdiyim əmrə əməl etmək
sizin üçün çətin və əlçatmaz deyil. 12 Axı o,
göylərdə deyil ki, deyəsiniz: "Kim bizim üçün
göylərə çıxacaq və onu oradan götürüb bizə
çatdıracaq ki, biz buna əməl edək?" 13 O,
dənizin o tayında deyil ki, deyəsiniz: "Kim
bizim üçün dənizin o tayına gedəcək və onu
götürüb bizə çatdıracaq ki, qulaq asıb buna
əməl edək?" 14 Yox, bu kəlam sizə əməl etmək
üçün çox yaxındır, o, dilinizdə və
ürəyinizdədir.

15 Bax bu gün sizin qarşınızda həyatla
xoşbəxtliyi, ölümlə bədbəxtliyi qoyuram.
16 Bu gün sizə Allahınız Rəbbi sevməyi, Onun
qoyduğu yollarla getməyi, əmrlərinə,
qaydalarına, hökmlərinə riayət etməyi əmr
edirəm. Belə etsəniz, yaşayıb artacaqsınız və
mülk olaraq almaq üçün gedəcəyiniz torpaqda
Allahınız Rəbb tərəfindən xeyir-dua
alacaqsınız. 17 Əgər bu yoldan dönsəniz, qulaq
asmasanız, azaraq, yad allahlara səcdə qılaraq
onlara qulluq etsəniz, 18 bu gün sizə bildirirəm
ki, mütləq məhv olacaqsınız. İordan çayını
keçib mülk olaraq almaq üçün gedəcəyiniz
ölkədə uzun ömür sürməyəcəksiniz.
19 Qarşınızda həyatla ölümü, bərəkətlə lə'nəti
qoyduğum üçün bu gün göyü və yeri sizə
şahid tuturam. Həyatı seçin ki, siz və
övladlarınız yaşaya biləsiniz. 20 Allahınız
Rəbbi sevin, sözü qulağınızda qalsın və Ona
bağlanın. Çünki sizin həyatınız Odur. Belə
etsəniz, Rəbbin ata-babalarınız İbrahimə,
İshaqa və Yaquba verməyi və'd etdiyi
torpaqda sizi uzun ömürlü edəcək».

### *Musanın yerinə Yeşuanın gəlməsi*

31 1 Musa bütün İsraillilərin qarşısına
çıxıb belə dedi: 2 «Artıq mən yüz
iyirmi yaşındayam, daha sizə başçılıq etməyə
taqətim yoxdur. Rəbb mənə demişdir ki,
İordan çayının o tayına keçməyəcəyəm.
3 Oranı keçəndə başınızın üstündə Allahınız
Rəbb gedəcək və O, millətləri qarşınızdan yox
edəcək, siz də onların torpaqlarını irs olaraq
alacaqsınız. Rəbbin sözünə görə Yeşua sizə
rəhbərlik edəcək. 4 Rəbb Emorlu padşahları
Sixonu və Oqu həlak edərək ölkələrinin
başına gətirdiyini bu millətlərin də başına
gətirəcək. 5 Rəbb onları sizə təslim edəcək.
Onlarla əmr etdiyim kimi rəftar etməlisiniz.
6 Cəsarətli və möhkəm olun! Onlardan qorxub
çəkinməyin! Çünki Allahınız Rəbb sizinlə
gedir. O sizi atmaz, tərk etməz!»

7 Sonra Musa Yeşuanı çağırıb bütün
İsraillilərin gözü qarşısında ona belə dedi:
«Cəsarətli və möhkəm ol! Çünki Rəbbin
atalarına və'd etdiyi ölkəyə bu xalqla birlikdə
sən gedəcəksən. Ölkəni irs olaraq onlara sən
verəcəksən. 8 Başının üstündə Rəbb gedəcək.
O səninlədir, səni atmaz və tərk etməz.
Qorxub çəkinmə!»

### *Qanunun oxunması*

9 Musa bu qanunu yazıb sonra Rəbbin Əhd
sandığını aparan Levili kahinlərə və bütün
İsrail ağsaqqallarına verdi. 10 Sonra onlara
belə buyurdu: «Hər yeddi ilin sonunda,
borcların bağışlanma ilində, Çardaqlar
bayramında, 11 bütün İsraillilər Allahınız
Rəbbin hüzurunda olmaq üçün Onun seçəcəyi
yerə gələndə bu qanunu İsraillilərə oxuyun.
12 Xalqın kişi, qadın və uşaqlarını, həmçinin
şəhərinizdə yaşayan yadelliləri toplayın. Qoy
hamı eşidib öyrənsin və Allahınız Rəbdən
qorxub qanunun bütün sözlərinə dəqiq əməl
etsin. 13 Qoy qanunu bilməyən uşaqlar da
eşitsinlər və mülk olaraq almaq üçün İordan
çayından keçib gedəcəyiniz ölkədə ömür boyu
Allahınız Rəbdən qorxmağı öyrənsinlər».

### *Rəbbin Musaya son əmri*

14 Rəbb Musaya dedi: «Ölümünə az qalıb.
Yeşuanı çağır. Hüzur çadırında hazır dayanın
ki, ona əmrlərimi bildirim». Beləliklə, Musa
ilə Yeşua gedib Hüzur çadırında gözlədilər.
15 Sonra Rəbb çadırda sütuna oxşar bir bulud

***30:12-14*** *– Rom. 10:6-8*
***30:20*** *– Yar. 12:7; 26:3; 28:13*
***31:2*** *– Say. 20:12*
***31:4*** *– Say. 21:21-35*
***31:6,8*** *– Yeşua 1:5; İbr. 13:5*
***31:10*** *– Qanun. 15:1*
***31:10*** *– Qanun. 16:13-15*

içərisində göründü. Bulud çadırın qapısı
üzərində dayandı.
16 Rəbb Musaya belə söylədi: «Bu
yaxınlarda ölüb atalarına qovuşacaqsan. Bu
xalq da gedəcəyi ölkənin allahlarına bağlanıb
Mənə xəyanət edəcək. Məni atıb onlarla
bağladığım əhdi pozacaqlar. 17 Onda onlara
qəzəblənəcəyəm, onları ataraq üz
döndərəcəyəm. Onlar başqalarına yem olacaq,
başlarına çox bəlalar və müsibətlər gələcək.
Həmin gün "Allahımız bizimlə olmadığı üçün
başımıza müsibətlər gəldi" deyəcəklər.
18 Başqa allahlara tərəf dönməklə pis iş
gördüklərinə görə mütləq onlardan üz
döndərəcəyəm.
19 İndi özünüz üçün bu ilahini yazın və
İsrail övladlarına öyrədin. Qoy onu oxusunlar.
Belə ki bu ilahi İsraillilərə qarşı Mənim
şahidim olsun. 20 Çünki onları atalarına and
edib söz verdiyim süd və bal axan torpağa
gətirəndə, yeyib-doyanda və kökələndə yad
allahlara meyl edərək onlara sitayiş edəcəklər,
Məni rədd edərək əhdimi pozacaqlar.
21 Onlara çox bəlalar və müsibətlər yetişəndə
qoy bu ilahi onlara qarşı şahid kimi səslənsin,
çünki bu ilahi nəsillərin dilindən düşməyəcək.
Ona görə ki Mən onları və'd etdiyim torpağa
gətirməzdən əvvəl, bu gün belə, fəndgir
olduqlarını bilirəm». 22 Həmin gün Musa bu
ilahini yazıb İsrail övladlarına öyrətdi.
23 Rəbb o gün Nun oğlu Yeşuaya əmr edib
dedi: «Cəsarətli və möhkəm ol, çünki İsrail
övladlarını onlara və'd etdiyim ölkəyə sən
aparacaqsan və Mən səninləyəm».
24 Musa bu qanunu sözlərindən heç nəyi
əskiltmədən kitaba yazmağı qurtaranda
25 Rəbbin Əhd sandığını daşıyan Levililərə bu
əmri verdi: 26 «Bu Qanun kitabını götürüb
Allahınız Rəbbin Əhd sandığının yanına
qoyun. Qoy sizə qarşı bir şahid olaraq orada
qalsın. 27 Çünki sizin asi və dikbaş
olduğunuzu bilirəm. Bu gün mən sağ olaraq
aranızda ikən belə, Rəbbə asi oldunuzsa, gör
mən öləndən sonra necə olacaqsınız.
28 Qəbilələrinizin bütün ağsaqqallarını və
mə'murlarınızı yanıma toplayın. Bu sözləri
onlara eşitdirim ki, göyü və yeri onlara qarşı
şahid tutacağam. 29 Ölümümdən sonra
tamamilə pozulacağınızı, sizə əmr etdiyim
yoldan azacağınızı bilirəm. Son günlərdə
müsibətlərlə qarşılaşacaqsınız. Çünki Rəbbin
gözündə pis olan işləri görərək əməllərinizlə
Onu qəzəbləndirəcəksiniz».

### *Musanın ilahisi*

30 Musa bu ilahini axıracan oxudu ki, bütün
İsrail icması ilahinin sözlərini eşitsin.

32 1 «Ey göylər, qulaq asın,
söyləyəcəyəm,
Qoy yer üzü dilimdən çıxan sözləri
eşitsin.
2 Qoy tə'limim yağış kimi tökülsün,
Sözüm şeh kimi düşsün,
Çəmən üzərinə düşən narın yağış tək
olsun,
Ot üzərinə tökülən leysana oxşasın,
3 Çünki Rəbbin ismini e'lan edəcəyəm!
Allahımızın əzəmətini mədh edin!
4 O, işləri kamil Qayadır,
Çünki bütün yolları haqdır,
Sadiq Allahdır, heç zaman haqsızlıq
etməz,
Adil və doğru olan Odur.
5 Ona xəyanət etdilər,
Ona övlad olmadılar,
Ona görə rüsvay oldular.
Çünki əyri və tərs nəsildirlər.
6 Ey ağılsız, axmaq xalq,
Rəbbə budurmu əvəziniz?
Sizi yaradan, sizə görkəm verən
Atanız, Yaradanınız O deyilmi?

7 Ötən günləri yadınıza salın,
Keçmiş nəsillərə nəzər salın,
Atanızdan soruşun, o sizə desin,
Ağsaqqallarınızdan soruşun, onlar sizə
söyləsin.
8 Haqq-Taala millətlərə irsi torpaq
bölərkən,
Bəşər övladlarını ayırarkən
İsrail övladlarının sayına görə
Xalqlara sərhəd qoydu.
9 Çünki Rəbbin payı Öz xalqıdır!
Yaqub Onun payına düşən irsidir.

10 Onu quraq bir torpaqda,
Uğultulu, boş-biyaban səhrada tapdı.
Bir sipər kimi onu hifz etdi,
Göz bəbəyi kimi onu qorudu.

***31:23*** *– Say. 27:23*
***31:23*** *– Yeşua 1:6*

***32:8*** *– Həv. 17:26*

11 Yuvasında balalarını sövq etdirərək
uçuran,
Onlar üzərində qanad çalan,
Qanadlarını açıb onları tutan,
Pərlərinin üzərində aparan qartal kimi
12 Ona yol göstərən yalnız Rəbb idi.
Yanında özgə bir allah yox idi.

13 Onu yer üzünün yüksəkliklərinə
çıxartdı,
Zəminin məhsulundan yedirtdi.
Onu qayadan süzülən balla,
Çaxmaq daşından çəkilən yağla bəslədi.
14 Onu inəklərin kəsmiyi, qoyunların
südü ilə,
Kökəldilmiş quzularla,
Başandakı təkələrlə, qoçlarla.
Ən yaxşı buğda ilə bəslədi.
Xalq şərabı, üzümün al qanını içdi,

15 Lakin Yeşurun[3] kökələrkən təpik atdı,
Doyarkən, yoğunlaşıb piylənşərkən
Onu yaradan Allahı tərk etdi,
Xilaskarını, Qayasını rədd etdi.
16 Yad allahlarla Allahı qısqandırdılar,
İyrənc əməllərlə Onu qəzəbləndirdilər.
17 Allah olmayan cinlərə,
Tanımadıqları allahlara,
Atalarının qorxmadıqları,
Son zamanlar yeni yaranan allahlara
Qurban kəsdilər.
18 Sizi həyata gətirən Qayanı atdınız.
Sizi yaradan Allahı unutdunuz.

19 Rəbb bunu görəndə onları rədd etdi,
Çünki oğul və qızları Onu hiddətləndirdi.
20 O dedi: "Bax onlardan Mənim üzüm
dönəcək,
Onların aqibəti görüm necə olacaq?
Çünki onlar e'timada layiq olmayan
övladlar, azğın nəsildirlər.
21 Məni Allah olmayanlarla
qısqandırdılar,
Boş bütləri ilə qəzəbləndirdilər.
Mən də onları ləyaqətsiz xalqla
qısqandıracağam,
Axmaq bir millətlə qəzəbləndirəcəyəm.

22 Çünki qəzəbimdən bir od alovlandı,
Ölülər diyarı dibinəcən yandı.
Dünyanı və ne'mətlərini yeyib
qurtaracaq,
Dağların bünövrəsi odlanıb tutuşacaq.
23 Mən onların üzərinə bəlalar
yığacağam,
Oxlarımı onlara tuşlayacağam.
24 Qıtlıqdan tükənəcək, qızdırmadan
qırılacaqlar,
Vəbadan tələf olacaqlar.
Heyvanların dişlərini,
Torpaqda sürünən ilanların zəhərini
Onlara sarı göndərəcəyəm.
25 Gənc oğlanı və qızı,
Südəmər körpəni, ağsaçlı insanı
Bayırdan qılınc, daxildən dəhşət məhv
edəcək.
26 Dedim: ‹Qoy onları uzaqlara dağıdım,
Onları insanların yaddaşından çıxarım›.
27 Lakin düşmənin istehzasından
çəkindim,
İstəmədim ki, əleyhdarları yanlış anlayıb
desinlər:
‹Bütün bu işləri Rəbb görməyib,
Özümüz zəfər qazanmışıq›".

28 Çünki onlar düşüncəsiz bir millətdir,
Necə də ağılsızdırlar.
29 Kaş ki müdrik olub bunu dərk
edəydilər,
Aqibətlərini düşünəydilər.
30 Əgər onların Qayası onları satmasaydı,
Rəbb onları təslim etməsəydi,
Bir adam min nəfəri necə qova bilərdi?
İki kişi on min nəfəri necə qaçıra bilərdi?
31 Həqiqətən, onların qayası Qayamız
kimi deyil,
Hətta düşmənlərimiz bunu qəbul edir.
32 Tənəkləri Sodomdakı üzüm
ağaclarındandır,
Homorra bağlarındandır.
Üzümləri zəhərlidir,
Salxımları acıdır.
33 Şərabları əf'i ilan zəhəridir,
Gürzələrin öldürücü ağısıdır.

34 "Məgər bunların hamısını Mən
yanımda saxlamamışammı?
Bunları xəzinəmdə möhürləyən Mən
deyiləmmi?

---

[3] **32:15; 33:5,26** *Yeşurun* – İsrailin bir ləqəbi olub *düz olan* mə'nasını verir.
***32:17*** *– 1Kor. 10:20*
***32:21*** *– 1Kor. 10:22*
***32:21*** *– Rom. 10:19*

[35] Qisas Mənimdir, əvəzini Mən
verəcəyəm.
Vaxtı çatarkən sürüşüb yıxılacaqlar,
Çünki onlar həlak gününə yaxındırlar,
Əcəlləri tez çatar".

[36] Rəbb Öz xalqına haqq qazandıracaq.
Onların gücünün qurtardığını görərkən,
Nə kölədən, nə azaddan kimsə
qalmayarkən
Qullarına rəhm edəcək.
[37] O belə deyəcək: "Hanı onların Allahı,
sığınacaqları qaya?
[38] Qurbanlarının yağını yeyən,
Hanı maye təqdimlərini içən allahları?
Qoy sizə kömək etmək üçün dursunlar,
Pənahgahınız olsunlar.

[39] İndi görün ki, Allah yalnız Mənəm.
Başqası yoxdur.
Mənəm öldürən və həyat verən,
Mənəm yaralayan və şəfa verən,
Heç kim əlimdən qurtara bilməz.
[40] Çünki əlimi göylərə qaldırıb belə
bəyan edirəm:
‹Əbədi Varlığıma and olsun ki,
[41] Şimşək çaxan qılıncımı itiləyib
Hökm etmək üçün əlimə alsam,
Düşmənlərimdən qisas alacağam,
Mənə nifrət edənlərdən əvəz çıxacağam.
[42] Onların qanı ilə oxlarımı sərxoş
edəcəyəm;
Qılıncım əti, qırılanların, əsir edənlərin
qanını,
Düşmən rəhbərlərinin başını yeyəcək›".

[43] Ey millətlər, Onun xalqı ilə bərabər
sevinin!
Çünki O, qullarının qan qisasını alacaq,
Düşmənlərindən əvəz çıxacaq,
Ölkəsi və xalqı üçün kəffarə edəcək».
[44] Musa Nun oğlu Yeşua ilə bərabər gəlib
bu ilahinin bütün sözlərini xalq qarşısında
söylədi. [45] Musa bütün İsraillilərə bu sözlərin
hamısını söyləyib qurtaranda [46] belə dedi: «Bu
gün sizə bəyan etdiyim sözlərin hamısına
ürəkdən bağlanın ki, övladlarınıza bu
qanunun bütün sözlərinə diqqətlə əməl etməyi
əmr edəsiniz. [47] Axı bu sizin üçün
əhəmiyyətsiz iş deyil, həyatınızdır. Bu sözlər
mülk olaraq almaq üçün İordan çayını
keçərək gedəcəyiniz torpaqda sizə uzun ömür
verəcək».

### *Musanın ölümünün əvvəldən bildirilməsi*

[48] Rəbb elə həmin gün Musaya belə dedi:
[49] «Yerixo qarşısında, Moav torpağında olan
bu Avarim dağına, Nevo dağına çıx. İsrail
övladlarına mülk olaraq verəcəyim Kən'an
torpağını gör. [50] Qardaşın Harun Hor dağında
ölüb əcdadlarına qovuşduğu kimi sən də
çıxacağın dağda ölüb xalqına qovuşacaqsan.
[51] Çünki Zin səhrasında, Meriva-Qadeş
sularında, İsrail övladlarının önündə Məni
müqəddəs saymamaqla İsrail övladları
arasında Mənə xəyanət etdiniz. [52] Ona görə
ölkəni uzaqdan görəcəksən, lakin İsrail
övladlarına verəcəyim torpağa
girməyəcəksən».

### *Musanın İsrail qəbilələrinə xeyir-duası*

33 [1] Allah adamı Musa ölümündən
əvvəl İsrail övladlarına bu xeyir-duanı
oxudu. [2] O belə dedi:
«Rəbb Sina dağından gəldi,
Bizə Seirdən zühur etdi,
Paran dağından şəfəq saçdı,
On minlərlə müqəddəs mələklər ilə gəldi.
Sağ əlində yanar alov var idi.
[3] Ya Rəbb, həqiqətən, Sən xalqları
sevirsən!
Bütün müqəddəslər Sənin əlindədir!
Onlar ayağına düşər, sözlərini dinlər.
[4] Musa bizə qanuna əməl etməyi tapşırdı,
Bu, Yaqubun icması üçün bir irsdir.
[5] İsrail qəbilələri,
Xalqın rəhbərləri bir yerə yığılanda
Rəbb Yeşuruna padşah oldu.

[6] Qoy Ruven ölməsin, yaşasın!
Xalqının sayı azalmasın!»

[7] Musa Yəhuda üçün belə dedi:
«Ya Rəbb, Yəhudanın səsini eşit,
Onu xalqına geri qaytar.
O özü üçün öz əlləri ilə döyüşdü,
Düşmənlərinə görə ona kömək et!»

[8] Levi üçün belə dedi:

***32:35*** *– Rom. 12:19; İbr. 10:30*
***32:36*** *– Zəb. 135:14*
***32:43*** *– Rom. 15:10-11*
***32:43*** *– Vəhy 19:2*
***32:48-52*** *– Say. 27:12-14; Qanun. 3:23-27*
***33:8*** *– Çıx. 28:30*

«Ya Rəbb, Tummimin və Urimin
Sənin sadiq qulun üçündür.
Onu Massada sınaqdan keçirdin,
Onunla Meriva sularında mübahisə etdin.
9 O, ata-anası üçün dedi:
"Onlara nəzər salmadım".
Qardaşlarını tanımadı,
Övladlarını unutdu,
Ancaq Sənin sözünə riayət etdi,
Sənin əhdini hifz etdi.

10 Hökmlərini Yaqub nəslinə,
Qanununu İsraillilərə öyrədəcəklər.
Onlar hüzurunda buxuru,
Qurbangahında bütöv yandırma
qurbanını təqdim edəcək.
11 Ya Rəbb, onların malına bərəkət ver,
Əməllərindən razı qal.
Kim onlara hücum etsə,
Kim onlara nifrət etsə,
Belini qır,
Bir daha qalxmasınlar!»

12 Binyamin üçün belə dedi:
«Rəbbin sevimlisi
Onun yanında əmin-amanlıqda yaşasın!
Rəbb gün boyu onu qoruyur,
O da Rəbbin qucağında qalır».

13 Yusif üçün belə dedi:
«Onun torpağı Rəbdən bərəkət alsın,
Göydən gələn qiymətli şehlə,
Yer altında yatan dərin sularla,
14 Günəşin yetişdirdiyi ən gözəl barlarla,
Hər ay yetişən ən gözəl bəhərlərlə,
15 Ulu dağların ə'la ne'mətləri ilə,
Əbədi təpələrin münbitliyi ilə,
16 Yerin ən qiymətli məhsulu və bolluğu
ilə
Kol da məskən Salanın lütfü ilə
Qoy bərəkət alsın!
Yusifin başı üzərinə –
Qardaşlarından ayrı düşənin başı üzərinə
Qoy bərəkət yağsın!
17 O, birinci doğulan buğa qədər
heybətlidir,
Buynuzları çöl öküzünün buynuzlarına
bənzəyir.
Bu buynuzlarla xalqları,
Yer üzünün ucqarlarındakıları vuracaq.
Bax belədir Efrayimin on minləri,
Bax budur Menaşşenin minləri».

18 Zevulun üçün belə dedi:
«Ey Zevulun, yola düşəndə sevin,
Ey İssakar, çadırlarında sevin!
19 Onlar xalqları dağa çağıracaqlar,
Orada salehlik qurbanları kəsəcəklər.
Bol dəniz ne'mətləri ilə,
Qumlarda gizlənən xəzinələrlə
doyacaqlar».

20 Qad üçün belə dedi:
«Qadın ərazisini artırana şükür olsun!
Qad aslan tək yaşayır,
Qolu, başı qoparır.
21 O özü üçün ilk torpağı seçdi.
Çünki onun üçün sərdarın payı saxlanıldı.
Xalq rəhbərləri yığılanda
Rəbbin ədalətini,
İsraillilərə gətirdiyi hökmləri icra etdi».

22 Dan üçün belə dedi:
«Dan Başandan sıçrayan
Bala aslandır».

23 Naftali üçün belə dedi:
«Ey Rəbbin lütfü və bərəkəti ilə dolu
olan Naftali,
Qərbi və cənubu mülk edəcəksən».

24 Aşer üçün belə dedi:
«Oğullar arasında Aşer ən çox bərəkət
alsın!
Qardaşlarının ən çox bəyəndiyi o olsun!
Ayağını zeytun yağına batırsın.
25 Darvazalarının cəftələri dəmirdən,
tuncdan olsun,
Qüvvətin ömrün boyu qurtarmasın!

26 Ey Yeşurun, bax sənə kömək etmək
üçün
Göylər və buludlara əzəməti ilə minən
Allahın bənzəri yoxdur.
27 Pənahgahın əzəli əbədi Allahdır,
Səni daim qollarında gəzdirər.
Düşmənlərini qarşından qovar,
"Yox et onları!" sənə deyər.
28 İsrail əmin-amanlıqda yaşayır.
Taxıl və təzə şərab torpağında
Yaqubun çeşməsi sakit qalır,
Oraya göylərdən şeh damır.

***33:8** – Çıx. 17:7; Say. 20:13*
***33:16** – Çıx. 3:2*

[29] Ey İsrail! Necə xoşbəxtsən,
Sənin kimisi varmı?
Rəbbin qurtardığı xalqsan!
Rəbb sipərdir, köməyinə çatandır,
Əzəmətli qılıncındır.
Sənə düşmənlər yaltaqlanır,
Sən onların yuxarı yerlərini
tapdalayırsan».

### *Musanın ölümü*

34 [1] Musa Moav düzənliyindən Nevo
dağına gedib Yerixo qarşısında olan
Pisqa təpəsinə çıxdı. Rəbb ona bütün ölkəni
göstərdi. Dana qədər uzanan Gileadı, [2] bütün
Naftalini, Efrayim və Menaşşe torpaqlarını,
Qərb dənizinə qədər uzanan bütün Yəhuda
torpağını, [3] Negevi, Xurmalar şəhəri Yerixo
vadisinin Soara qədər uzanan hövzəsini
göstərdi. [4] Sonra Rəbb ona dedi: «İbrahimə,
İshaqa və Yaquba və'd etdiyim torpaq budur,
oranı sizin övladlarınıza verəcəyəm. Mən izin
verdim ki, oranı öz gözlərinlə görəsən. Lakin
oraya girməyəcəksən».

[5] Rəbbin sözünə görə qulu Musa elə orada –
Moav torpağında öldü. [6] Rəbb onu Moav
torpağında olan Bet-Peor qarşısındakı dərədə
dəfn etdi. Bu günə qədər heç kim onun
qəbrinin yerini bilmir. [7] Musa öləndə yüz
iyirmi yaşında idi. Gözü nurdan düşməmiş,
taqəti çəkilməmişdi. [8] İsrail övladları Musa
üçün Moav düzənliyində otuz gün matəm və
yas tutdular.

Musa üçün olan ağlaşma və yas günləri qurtardı.

[9] Nun oğlu Yeşua hikmət ruhu ilə dolmuşdu,
çünki Musa onun üzərinə əllərini qoymuşdu.
İsrail övladları də ona qulaq asdılar və Rəbbin
Musaya əmr etdiyi hər şeyə əməl etdilər.

[10] İsraildə Musa kimi Rəbbin üz-üzə
görüşdüyü bir peyğəmbər bir daha çıxmadı.
[11] Rəbb onu göndərmişdi ki, Misir torpağında
fir'ona, onun bütün ə'yanlarına, ölkəsinə
çoxlu əlamətlər və mö'cüzələr göstərsin.
[12] Musanın əməlləri İsraillilərin gözləri
önündə böyük və zəhmli idi.

---

***34:4*** *– Yar. 12:7; 26:3; 28:13*
***34:10*** *– Çıx. 33:11*